

4

## Azərbaycan Çin ilə qarşılıqlı əlaqələrə böyük önəm verir

# Zəngəzur dəhlizi addım-addım reallaşır



3

*Zəngəzur dəhlizi ilə bağlı məsələ hazırda diqqət mərkəzindədir və ən həssas mövzu olmaqla təkcə Azərbaycanın deyil, region dövlətlərinin də maraq dairəsindədir. Komunikasiyaların açılmasının, mövcudluğunun iqtisadi əlaqələrin, əməkdaşlığın daha da gücləndirilməsi ...*

Səs
№ 199 (6399) 30 oktyabr 2021-ci il. Qiymәti 40 qәpik

# Erməni siyasi analitik: “Qarabağ bizə lazım deyildi”




14

## 2022-ci ilin büdcəsində neftin qiyməti 50 dollar olacaq

16



**2022**-ci il Azərbaycan dövlət büdcəsində neftin qiyməti 50 dollar səviyyəsində müəyyən edilib. SİA-nın məlumatına görə, bunu Azərbaycan Mərkəzi Bankının idarə heyətinin sədri Elman Rüstəmov mətbuat konfransında deyib.

## Təhsil eksperti: Birdən-birə dəyişikliyi etməklə uşaqları çətin vəziyyətə salırıq



13

*“İlk növbədə qeyd edim ki, qəbul sistemində hər hansısa dəyişikliklərin həyata keçirilməsi tədris ili başlayandan sonra olmamalıdır. Çünki, artıq oktyabr ayı başa çatıb və abituriyentlərimiz növbəti il üçün hazırlıqlara başlayıblar”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib...*

## Qagik Melkonyan: "Onların Azərbaycan-Naxçıvan yolları olmalıdır"




7

## Rus general İrəvana sərhədlərin xəritəsini gətirib - Paşinyan sülhlə bağlı hansı mesajı verdi?




## 43 yaşlı Buffon penalti qaytardı



*“Parma"nın qapıçısı Canluici Buffon növbəti inamlı oyunu ilə diqqət mərkəzinə düşüb. Qol.az xəbər verir ki, 43 yaşlı qolkiper B seriyasının 10-cu turunda "Çittadella" ilə səfər görüşündə penaltini dəf edib.*

16

## Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadıldı



7

## Sosial şəbəkələri media kimi təqdim etmək nə dərəcədə doğrudur?



*"Sosial media ifadəsinin özü aydınlaşdırılmalıdır. Ümumən belə bir ifadə işlətmək və sosial şəbəkələri media kimi təqdim etmək nə dərəcədə doğrudur?".*

9

# Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətləri sarsılmazdır!

## *Prezident Ilham Əliyev Türkiyənin Diyanət İşləri İdarəsinin sədrini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşı qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Türkiyə Respublikasının milli bayramı - Respublika Günü münasibətilə təbriklərini çatdırdı, türk xalqına xoşbəxtlik və rifah arzuladı.

Söhbət zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə bu yaxınlardakı səfəri məmnunluqla xatırlandı, bu səfərin Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin növbəti nümunəsi olduğu və əlaqələrimizi daha da möhkəmləndirdiyi vurğulandı.

Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşın işğaldan azad olunmuş torpaqlarımıza səfər etməsinin önəminə toxunularaq, onun işğal dövründə bütün tarixi-dini abidələrin ermənilər tərəfindən məhv edildiyinin şahidi olduğu qeyd edildi. Görüşdə ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı.

# "Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür"







## *Türkiyə Respublikasının yaranmasının 98-ci ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib*

***Türkiyə Respublikasının yaranmasının 98-ci ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov, Milli Məclis sədrinin müavinləri və deputatları, dövlət və hökumət rəsmiləri, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki daimi nümayəndəliyinin rəhbəri, xarici ölkələrin Azərbaycandakı səfirləri, ictimaiyyətin nümayəndələri rəsmi qəbulda iştirak ediblər.

Türkiyənin ölkəmizdəki səfirliyi tərəfindən təşkil olunan tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən səfir Cahit Bağcı bildirib ki, Türkiyə Cümhuriyyəti yaradılmasından ötən 98 ildə həm daxili, həm xarici düşmələrin hücumlarına, təhdidlərinə məruz qalıb, onlara qarşı böyük müqavimət göstərərək bütün çətinlikləri geridə qoyub. Getdikcə daha da güclənən Türkiyə təhdidlərə qarşı hər cür yolları, strategiyaları inkişaf etdirərək bu günlərə gəlib çıxıb, regional gücə və qlobal aktora çevrilib.

Səfir qeyd edib ki, Türkiyə qardaş Azərbaycanla "Bir millət, iki dövlət" fəlsəfəsinə və Şuşa Bəyannaməsinin hədəflərinə uyğun şəkildə münasibətlərinin daha da dərinləşdirilməsi, genişləndirilməsi üçün böyük səylə çalışır.

Sonra Cahit Bağcı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Cümhuriyyətin yaranmasının 98-ci ildönümü münasibətilə xalqa müraciətini oxuyub.

Müraciətdə Türkiyə xalqını bayram münasibətilə təbrik edən Prezident Rəcəb Tayyib Ərdoğan Cümhuriyyətin banisi Mustafa Kamal Atatürk ilə qəhrəman silahdaşlarını hörmətlə andığını, canları bahasına bu vətəni onlara əmanət edən şəhidlərə Allahdan rəhmət dilədiyini bildirib.

Türkiyə Prezidenti müraciətində Azərbaycanın öz torpaqlarının 30 illik erməni işğalına son qoyduğunu vurğulayıb. Həmçinin qeyd edib ki, Türkiyə bu mübarizədə hər zaman azərbaycanlı qardaşlarının yanında olub, onları dəstəkləyib.

Prezident Rəcəb Tayyib Ərdoğanın müraciətində, həmçinin deyilir: "Qədim tariximizdən və dəyərlərimizdən aldığımız güclə 84 milyonla birlikdə Türkiyəni böyütmək və hədəflərinə çatmaq üçün səylərimizi davam etdiririk. Çətin epidemiya şəraitinə baxmayaraq, iqtisadiyyatda, daxili və xarici siyasətdə əldə etdiyimiz uğurlar ölkəmizin güclü infrastrukturu ilə yanaşı, prezident idarəetmə sisteminin səmərəliliyini göstərən mühüm göstəricidir. Bir millət olaraq birliyimizi, həmrəyliyimizi, qardaşlığımızı möhkəmləndirərək, böyük və güclü Türkiyə uğrunda mübarizə aparacağıq".

Rəsmi qəbulda çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Respublikasının yaradılmasının 98-ci ildönümü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin səmimi təbriklərini və ən xoş arzularını çatdırıb.

"Türkiyə Cümhuriyyətinin 98 il əvvəl böyük Mustafa Kamal Atatürkün rəhbərliyi ilə başlanan rifah və quruculuq yolu türk xalqının nələrə qadir olduğunu dünyaya göstərib. Xüsusilə son illərdə Türkiyə Cümhuriyyəti türk dünyasının böyük siyasi və dövlət xadimi Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə möhtəşəm inkişaf yolu keçib. Cəmiyyət və dövlət həyatının bütün sahələrində heyrət doğuran uğurlar qazanılıb. Bu gün siyasi, iqtisadi, hərbi gücünə görə Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən biridir. Qardaş ölkənin bu yüksəlişi bizi ürəkdən sevindirir, çünki Türkiyənin gücü Azərbaycanın gücü, Azərbaycanın gücü isə Türkiyənin gücüdür. Azərbaycanla Türkiyə arasında ortaq dəyərlərə əsaslanan səmimi münasibətlər beynəlxalq aləmdə nadir hadisədir. Xalqlarımızın və dövlətlərimizin dostluğu və qardaşlığı bizim ən böyük sərvətimizdir. Ölkələrimiz arasında münasibətlər ulu öndər Heydər Əliyevin ifadə etdiyi "Bir millət, iki dövlət" prinsipi üzərində qurulub. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır", - deyə Milli Məclisin sədri bildirib.

Sahibə Qafarova qeyd edib ki, Vətən müharibəsinin ilk dəqiqələrindən sonunadək Prezident Rəcəb Tayyib Ərdoğanın verdiyi mənəvi və siyasi dəstək, bütün Türkiyənin, türk xalqının tutduğu qəti mövqe Azərbaycan haqq işi uğrunda mübarizədə tək olmadığını hər kəsə göstərdi. Türkiyə və onun Lideri hər yerdə və hər zaman Azərbaycanın yanındadır. İkinci Qarabağ müharibəsində Azərbaycanın Qələbəsi Cənubi Qafqaz bölgəsində yeni reallıq yaradıb. Bu gün Azərbaycan və Türkiyənin birgə səyləri ilə bölgənin geosiyasi mənzərəsini dəyişən, ona yeni çalarlar gətirən layihələr planlı şəkildə və əzmlə həyata keçirilir.

"Qürurla söyləmək olar ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin iyununda Şuşanı ziyarət etmələri, iki dövlətin müttəfiqlik əlaqələri haqqında Şuşa Bəyannaməsinin imzalanması, bu günlərdə isə dövlət başçılarının Füzulidə beynəlxalq hava limanını açmaları, Zəngilanda Azərbaycanla Türkiyəni bir-birinə daha sıx bağlayacaq Zəngəzur dəhlizinin təməlini qoymaları, digər böyük layihələrin icrasına xeyir-dua vermələri xalqlarımızın dostluq və qardaşlığının yeni bir nümayişi oldu", - Milli Məclisin sədri vurğulayıb. Tədbir ziyafətlə davam edib.

***Zəngəzur dəhlizi ilə bağlı məsələ hazırda diqqət mərkəzindədir və ən həssas mövzu olmaqla təkcə Azərbaycanın deyil, region dövlətlərinin də maraq dairəsindədir. Komunikasiyaların açılmasının, mövcudluğunun iqtisadi əlaqələrin, əməkdaşlığın daha da gücləndirilməsi baxımından çox əhəmiyyətli olması günün reallığıdır və məhz buna görə də prioritet olaraq qalır. Atılan əməli addımlar da təsdiq edir ki, Azərbaycan bu dəhlizin açılmasında israrlıdır və bu proses qarşısıalınmazdır, hansıki, bu, ölkə hüdudlarından kənarda da etiraf olunur.***

# Zəngəzur dəhlizi addım-addım reallaşır

TƏHLİL

Valday Beynəlxalq Diskusiya Klubunun plenar iclasında Rusiya prezidenti Valdimir Putin qeyd edib ki, Azərbaycan SSRİ dövründə mövcud olan və Ermənistan ərazisindən Naxçıvanla əlaqənin bərpasında maraqlıdır, hansıki, bu, Bakı üçün prioritet məsələdir. Daha dəqiq desək, Putinin fikirlərindən aydın olur ki, Rusiya tərəfi Azərbaycanın Naxçıvanla əlaqələrini bərpa etməsində israrlı və qərarlı olmasını yaxşı bilir, hətta bunun qarşısıalınmaz olduğuna da əmindir. Rusiya prezidentinin dedikləri onun bu məsələdə Azərbaycanın haqlı olduğu qənaətinə qəldiyini təsdiqləyir. Əks halda, Putin buna ən azından müşahidəçi mövqe nümayiş etdirərdi. Biz isə hələ də bunun əksini müşahidə edirik və Rusiya liderinin Zəngəzur dəhlizinin açılışında maraqlı olduğu hər nitqində özünü göstərir. Görünür, yaxın zamanda, daha dəqiq desək, noyabrın əvvəlində Moskvada keçiriləcək üçtərəfli görüş zamanı da onun bu məsələyə eyni münasibətinin şahidi olacağıq. Bir sözlə, rəsmi Moskvanın mövqeyi bəllidir və heç də ermənilər, Ermənistan tərəfi Zəngəzur dəhlizinin açılmasına mane olmaq üçün Rusiyadan dəstək gözləyə bilməzlər və buna ümidləri də qalmayıb.



Təkcə prezident Vladimir Putinin deyil, bir sıra rusiyalı siyasilərin fikirlərindən də bəlli olur ki, həqiqətən də Rusiya tərəfi, hətta bu ölkənin ictimaiyyəti belə Zəngəzur dəhlizinin açılmasına kimsənin mane ola bilməyəcəyinə əmindir. Rusiya tərəfi bu əminliklə yanaşı, eyni zamanda sözügedən dəhlizin əhəmiyyətini də nəzərə alır. Bu dəhlizin regionda komunikasiyaların işə düşməsi üçün vacib olduğuna da şübhə edilmir. Məsələn, "Nasionalnaya Oborona" jurnalının baş redaktoru İqor Korotçenko "Vestnik Kavkaza" nəşrinin müxbirinə müsahibəsində qeyd edir ki, Zəngəzur dəhlizi Qarabağ müharibəsi başa çatdıqdan sonra regionda beynəlxalq nəqliyyat kommunikasiyalarını tam şəkildə işə salmağa imkan verəcək. Əlbəttə ki, bu reallığı inkar etmək də qeyri-mümkündür və Azərbaycanın ilk əvvəldən də mövqeyi dəyişməz olaraq qalır. Məqsəd komunikasiyaları işə salmaq, bununla da əlaqələrin daha da genişləndirilməsinə, daha sürətli inkişafa nail olmaqdır ki, buna artıq Ermənistan tərəfi mane olmaq iqtidarında deyil.

Rusiyalı ekspertlər də bu fikirdədir ki, nəqliyyat dəhlizi açılmalıdır və bu dəhlizin açılması elə bu gün artıq çarəsiz qalan ermənilər üçün də vacibdir. "PolitRUS" ekspert-analitik şəbəkəsinin rəhbəri, rusiyalı ekspert Vitali Arkov da öz növbəsində, Ermənistan üçün ən vacib məsələnin blokadanın aradan qalxması, regiondakı nəqliyyat layihələrinə və iqtisadi əlaqələrə daxil olması olduğunu vurğulayıb. O, qeyd edib ki, təxribatlara uymamaq, qonşunu düşmən kimi deyil, tərəfdaş kimi görək lazımdır. Rusiyalı ekspert Vitali Arkovun fikrincə Azərbaycandan fərqli olaraq, Ermənistanda bunu dərk edəcək insanlar hələ də azlıq təşkil edir.

Ola bilsin ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı erməniləri narahat edən bir sıra məsələlər var və buna görə də tərəddüd edirlər. Məsələn, Zəngəzur nəqliyyat dəhlizinin Ermənistanı qonşu İranla sərhəddən məhrim edəcəyindən ehtiyatlanan rəsmi İrəvanı hələ də düşünməyə vadar edən məqamlar əlbəttə ki, var və bu danılmazdır. Buna baxmayaraq, çıxış yolu hər zaman mövcuddur və bu dəhlizin açılmasını uzatmaqdansa, tərəflərin çıxış yolu tapması daha məqsədəuyğun olardı. Çox gümün ki, noyabr ayında Moskvada reallaşacaq üçtərəfli görüşün müzakirə mövzusundan biri də məhz bu ola bilər. İstər iqtisadi əməkdaşlıq, istər kollektiv təhlükəsizliyin təmin edilməsi, istərsə də bir sıra üstünlüklər vəd etdiyini nəzərə alsaq, hər bir halda Zəngəzur dəhlizi açılacaq və buna Ermənistan tərəfinin mane ola bilməyəcəyi günün reallığıdır.

Rəsmi Moskvanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi birmənalıdır və bunu rəsmilərin çıxışlarında da müşahidə etmək olur. Yəni, dəhlizin açılmasına rusların tərəfdar olduqlarını Rusiyanın rəsmi şəxsləri açıq-aşkar bildirirlər. Qeyd edək ki, cümə axşamı keçirdiyi brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın "Zəngəzur dəhlizi" çərçivəsində "yolun təməlinin qoyulması" ilə əlaqədar bəyanatlara Moskvanın münasibəti ilə bağlı sualı cavablandırarkən Rusiyanın mövqeyini tam aydın şəkildə görmək olur. "Biz Cənubi Qafqazda bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılmasına dair üçtərəfli sazişlərin həyata keçirilməsinə töhfə verən bəyanatlara və addımlara əməl etməyi düzgün hesab edirik", deyə Mariya Zaxarova vurğulayıb və bu da ondan xəbər verir ki, Rusiya komunikasiyaların açılışı, yəni Zəngəzur dəhlizinin istifadəyə verilməsinin tam tərəfdarıdır.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi həmçinin qeyd edib ki, Ermənistan hakimiyyəti "Zəngəzur dəhlizi" yaratmaq planlarının olmaması barədə dəfələrlə bəyan edib. Rusiya XİN rəsmisi onu da diqqətə çatdırıb ki, İrəvan "Zəngəzur Dəhlizi" çərçivəsində danışıqların aparılması imkanını rədd etməyə çalışır, amma çox böyük səhvə yol verir. Əlbəttə ki, hazırda blokada şəraitində qalan, heç bir imkanı, potensialı olmayan Ermənistanın bundan başqa çarəsi yoxdur və bunu Rusiya XİN rəsmisi inkar edə də bilməzdi. Əks halda bu qeri-səmimi mövqe nümayişi olaraq qəbul olunardı. Çünki, bundan başqa Ermənistan üçün hansısa digər bir çıxış yolunun olması barədə bircə dənə də təklif belə yoxdur. Başqa bir tərəfdən də Naxçıvan, Azərbaycan və Xəzər dənizi vasitəsilə Türkiyəni Mərkəzi Asiya ölkələri ilə birləşdirməyə imkan verəcək dəhlizə ruslar mane olmaq niyyəti belə ifadə etməzlər.

Rəsmi İrəvanın Zəngəzur dəhlizinin açılmasında tərəddüd etdiyi sirr deyil, amma Ermənistanda heç də hamı bu dəhlizdən danışanda daş atıb baş tutmur. Bəzi ermənilər, daha doğrusu, mövcud çıxışmaz vəziyyətlərini başa düşən ermənilər bundan başqa çarələrinin olmadığını etiraf edirlər. Bir çoxları isə Azərbaycanın bu dəhliz layihəsini gerçəkləşdirməsinə tam hüquqlu olduğu qənaətindədirlər. Məsələn, Ermənistan Mülki Müdafiə Partiyasından olan deputat Qagik Melkonyan bəyan edib ki, yollar açılmalıdır, azərbaycanlılar Naxçıvana sərbəst gedib-gəlməlidirlər. Deputat qeyd edib ki, ermənilər Qarabağa gedib-gəldiyi kimi, azərbaycanlıların da gömrük-keçid məntəqəsi olmadan Naxçıvana belə bir gediş-gəliş imkanı olmalıdır və məhz buna görə də Ermənistan yolların açılmasına getməlidir, yollar açılmalıdır.

Ermənistanda bir çoxları iddia edirlər ki, guya dəhliz barədə bəyanatda heç nə yazılmayıb və guya ki, "Zəngəzur dəhlizi" ifadəsini Azərbaycan mediası süni şəkildə ortaya atıb. Hətta erməni mediası indi əl-ayağa düşüb rəsmilərdən təkziblər almağa başlayıb, amma bununla nəyə isə nail olacaqlarına özlərinin belə inanmadığı əhəmiyyətli dərəcədə hiss olunur. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın, "yalnız komunikasiyaların açılması müzakirə mövzusu ola bilər", deməsi erməni cəmiyyətini bir az da çaşdırıb. Lakin, baş nazirin müavini, üçtərəfli İşçi Qrupundakı erməni nümayəndə Mqer Qriqoryanın ifadələri də Ermənistan Təhlükəsizlik Şurasının katibinin fikirlərini alt-üst edib və bu ifadələr başı bəlalı erməni cəmiyyətini bir az da çaşqınlığa sürükləyib. Baş nazirin müavininin dediyinə görə, guya söhbət avtomobil yolundan deyil, yalnız SSRİ vaxtında mövcud olan dəmir yolunun açılmasının müzakirəsindən gedir. Halbuki, artıq avtomobil yolunun da təməli qoyulub və ən yaxın zamanda ermənilər bunu da öz gözləri ilə görəcəklər. Doğrudur, onsuz da rəhbərləri tərəfindən aldadılmağa alışqan olan bir xalq, bir cəmiyyət üçün bu elə də bir fərq etməyə bilər, amma ən azından Qarabağ savaşı zamanında gec ayıldıqları zaman, məsələnin həll olunduğunu, uduzduqlarını, məğlub olduqlarını gördükləri vaxt necə şoka düşmüşdülərsə, elə də şok yaşamalı olacaqları gün uzaqda deyil.

Nəzərə almaq lazımdır ki, qardaş Türkiyə məsələnin həllində nəinki maraqlıdır, hətta hər an Azərbaycanın yanındadır və mövqelərini dəstəkləyir. Türkiyə liderinin vaxtaşırı Qarabağa səfəri heç də təsadüfi, sıradan bir səfər hesab olunmur və Türkiyənin hər zaman Azərbaycanın yanında olduğuna işarə, region dövlətləri üçün strateji əməkdaşlığımız barədə bir mesajdır. Məsələn, cənab Ərdoğanın Füzuli Hava Limanının açılışında iştirakı, ələlxüsus İranla sərhəd ərazilərdə olması, son zamanlar qonşuluq siyasətinə yad olan siyasət yürüdən İrana bir mesajdır. Təbii ki, yeganə dəstəyini İrandan alan Ermənistan üçün də bu sıradan bir hadisə deyil. Çünki, bir zaman İranın məsuliyyətsiz bəyanatlarına güvənən Ermənistan üçün də bu bir dərs hesab olunur və ermənilər dərk etmək məcburiyyətində qalırlar ki, artıq güvənc yerləri belə qalmayıb, meydanda tamamilə tək qalıblar.

Bir sözlə, Zəngəzur dəhlizinin açılması, mövcudluğu ilə bağlı narazılıq bildirmək üçün kiminsə, hansısa bir əsası qalmır. Nə blokadada olan Ermənistan, nə bu vaxta qədər bu işğalçı ölkəni dəstəkləyən İran bu prosesin qarşısını almaq iqtidarında deyil, nə də Rusiyanın bunlara havadarlıq etmək fikri yoxdur. Qardaş Türkiyə də həmişəki kimi Azərbaycanın yanındadır, ölkəmizin bütün layihələrini dəstəkləyir, strateji əməkdaşlığımız günü-gündən daha da artıq və gələcəkdə bundan da yaxın münasibətlərin olacağına zərrə qədər şübhə yoxdur. Hər iki ölkənin liderinə Füzuli Hava Limanının açılışı zamanı simvolik açarların təqdim olunması da təsdiq edir ki, bölgədə olan bütün kilidlərin açarı ancaq iki qardaş ölkədədir. Bütün bunlar da onu deməyə əsas verir ki, Zəngəzur dəhlizinin salınması məsələsinə mane olacaq bircə dənə də qüvvə yoxdur və bu dəhliz salınacaq. Hətta burada avtomobil yolunun təməlinin qoyulması belə təsdiq etdi ki, Zəngəzur dəhlizi addım-addım reallaşır.

***İnam Hacıyev***

***Oktyabrın 29-da Çin Kommunist Partiyasının təşəbbüsü ilə Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Çyan Xunşan arasında videoformatda görüş keçirilib.***

# Azərbaycan Çin ilə qarşılıqlı əlaqələrə böyük önəm verir

## *Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında videoformatda görüş keçirilib*













Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Çyan Xunşan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovu salamlayaraq bu görüşün keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Tahir Budaqov Çyan Xunşanı Çin Kommunist Partiyasının yaradılmasının 100 illiyi münasibətilə bir daha təbrik edərək bildirib ki, Azərbaycan Respublikası Çin Xalq Respublikası ilə qarşılıqlı əlaqələrə böyük önəm verir, ölkələrimiz arasında bu gün siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz uğurla davam edir. Əlaqələrin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin dostluq münasibətlərinin əhəmiyyətini vurğulayan Tahir Budaqov ortaq iqtisadi maraqlar, hər iki ölkənin tarixi İpək Yolunun bərpasındakı rolu və digər bu kimi amillərin əməkdaşlığın güclənməsinə zəmin yaratdığını qeyd edib. O, həmçinin, Azərbaycanın Çin Xalq Respublikasının irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsini dəstəkləyən ilk ölkələrdən biri olduğunu diqqətə çatdırıb. Zəngəzur dəhlizi isə Azərbaycanın tranzit ölkə kimi potensialını daha da gücləndirəcək, bu dəhliz vasitəsilə Şərq-Qərb istiqamətində beynəlxalq yükdaşımaların əhəmiyyətli dərəcədə artması regionda Azərbaycan və Çinin də fəal iştirakçısı olduğu yeni çoxtərəfli əməkdaşlıq platformasının formalaşmasını təmin edəcək. Bütövlükdə hesab edirik ki, münasibətlərimizin daha da inkişafı üçün böyük potensial var. Xüsusilə, iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün geniş imkanlar mövcuddur.

Görüşdə həmçinin, Azərbaycanın inkişafında yeni mərhələnin başlandığı, ötən il 44 günlük müharibə nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü təmin etdiyi vurğulanıb. YAP Sədrinin müavini Çinin hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirib: "Qarşıda dayanan əsas vəzifələrimizdən biri Ermənistanın işğalından azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərinin həyata keçirilməsidir. Bu prosesdə dost ölkələrin, o cümlədən Çinin şirkətləri də iştirak edir, amma istərdik ki, onların sayı daha da çox olsun".

Tahir Budaqov deyib ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının münasibətləri də uğurla davam edir. Cari ilin iyul ayında Çin Kommunist Partiyasının təşkilatçılığı ilə Dünya Siyasi Partiyalarının "Xalqın xoşbəxtliyi naminə: siyasi partiyaların məsuliyyəti" mövzusunda videokonfrans formatında keçirilən sammitində Yeni Azərbaycan Partiyası da təmsil olunub. Partiyalar arasında münasibətlər öz növbəsində dövlətlərin əlaqələrinin daha da güclənməsinə müsbət təsir edir.

Görüşdə iştirak edən Azərbaycanın Çin Xalq Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Əkrəm Zeynallı da ölkələr arasında münasibətlərin uğurla inkişaf etdiyini bildirib. O, əlaqələrin inkişafında Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının aparıcı rol oynadığını diqqətə çatdırıb.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Çyan Xunşan da qeyd edib ki, Çin Xalq Respublikası Sədrinin və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən əlaqələrimiz uğurla inkişaf edir. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətlə inkişaf etdiyini diqqətə çatdırıb və Çinin Azərbaycanın uğurlarına sevindiyini söyləyib. Bildirilib ki, Azərbaycan regionda Çinin əsas tərəfdaşlarından biridir. Çin Xalq Respublikası Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasında maraqlıdır.

Onun sözlərinə görə, hər iki ölkənin liderləri qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi üçün uğurlu siyasət həyata keçirirlər. Çyan Xunşan Çin Kommunist Partiyasının Yeni Azərbaycan Partiyası ilə əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib. Bu görüşün də məhz iki partiya arasında mövcud əlaqələrin və dostluq münasibətlərinin daha da gücləndirilməsi məqsədi daşıdığını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

# YAP Gənclər Birliyi və "Ze!Molodijka" təşkilatı arasında əməkdaşlıq haqqında memorandum imzalanıb



***Xarkov Diplomatiya Klubunda Yeni Azərbaycan Partiyası Gənclər Birliyi ilə Ukraynanın hakim "Sluqa Narodu" partiyasının "Ze!Molodijka" gənclər qolu arasında görüş keçirilib.***

"Sluqa Narodu" partiyasının "Ze!Molodijka" gənclər qolunun fəxri sədri, Ukrayna Ali Radasının deputatı Oleksandr Sançenko YAP Gənclər Birliyinin nümayəndə heyətini salamlayaraq səfər dəvətini qəbul etdiklərinə görə minnətdarlıq ifadə edib. Ukrayna gəncləri adından Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbə münasibətilə təbriklərini çatdırıb. Təmsil etdiyi "Ze!Molodijka" təşkilatının YAP Gənclər Birliyinin qazandığı geniş təcrübədən yararlanmaqda maraqlı olduğunu bildirən O.Sançenko tərəflər arasında sıx əlaqələrin qurulmasının vacibliyini vurğulayıb.

Görüşdə çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov göstərilən qonaqpərvərliyə və dəvətə görə təşəkkürünü bildirib. Diqqətə çatdırıb ki, Azərbaycan 44 günlük Vətən müharibəsində 30 illik erməni işğalına son qoyaraq ölkəmizin ərazi bütövlüyünün bərpa edib, regionda yeni reallıqlar yaradıb.

Azərbaycan və Ukrayna arasında mövcud tarixi dostluq münasibətlərindən söhbət açan B.İslamov bu amilin iki ölkə gənclərinin gələcək fəaliyyətlərinin daha da möhkəmlənməsində vacib rol oynayacığını deyib. O hər iki ölkənin hakim siyasi partiyalarının gənclər təşkilatları arasında sıx əməkdaşlığın qurulmasının vacibliyini qeyd edib.



Sonra YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və Ukraynanın hakim "Sluqa Narodu" partiyasının "Ze!Molodijka" gənclər qolunun fəxri sədri Oleksandr Sançenko Əməkdaşlıq haqqında Memorandumu imzalayıblar.

Sənədə əsasən, Ukrayna və Azərbaycan gəncləri arasında təcrübə mübadilələrinin aparılması, birgə layihələrin reallaşdırılması və əməkdaşlığın dərinləşdirilməsi nəzərdə tutulur.

Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, birgə xatirə şəkli çəkdirilib.

# Milli Məclisin iclasında 12 məsələ müzakirəyə çıxarılıb



***Oktyabrın 29-da Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin sədri Sahibə Qafarova əvvəlcə parlament nümayəndə heyətinin oktyabrın 20-22-də Yunanıstanın paytaxtı Afina şəhərinə işgüzar səfəri barədə məlumat verib.***

Parlament sədrlərinin Avropa konfransında iştirak etdiyini diqqətə çatdıran Milli Məclisin sədri bu tədbirin ilk dəfə 1975-ci ildə keçirildiyini qeyd edib. Konfransın ənənəvi olaraq iki ildən bir ya Strasburqda, ya da Avropa ölkələrindən birinin paytaxtında təşkil edildiyini bildirən Sahibə Qafarova budəfəki tədbirdə Avropa Şurasının üzvü olan 47 ölkənin parlament sədrlərinin, habelə müşahidəçi dövlətlərin 400 nəfərədək təmsilçisinin iştirak etdiyini bildirərək deyib: "İki gün davam edən toplantıda müxtəlif mövzular ətrafında səmərəli müzakirələr aparıldı. Azərbaycan parlamentinin sədri kimi iki mövzu üzrə məruzə ilə çıxış etdim. Oktyabrın 21-də konfransın açılış mərasimində iştirakçıları "Demokratiya COVID-19 pandemiyasının səhiyyədə yaratdığı böhranla üz-üzə: təcrübə mübadiləsi, növbəti addımlar" mövzusunda aparılan müzakirələrdə qlobal bəlaya qarşı Azərbaycanda həyata keçirilən tədbirlərlə bağlı məlumatlandırıldı".

Sahibə Qafarova konfransda ölkəmizin pandemiyaya qarşı qlobal mübarizəyə və beynəlxalq təşəbbüslərə dəstəyi haqqında da məlumat verib. Bildirilib ki, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təklifi ilə ötən ilin dekabrında Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19-la mübarizəyə həsr edilmiş Xüsusi Sessiyası keçirilib və bütün ölkələrin peyvəndlərə bərabər çıxışının təmin edilməsi üçün yenə də Qoşulmama Hərəkatı adından Azərbaycanın irəli sürdüyü qətnamə layihəsinin BMT-nin İnsan Hüquqları Şurasında bu ilin mart ayında yekdilliklə qəbul edilib. Azərbaycan dünyanın pandemiyadan daha tez və daha az itkilərlə çıxması məqsədilə qlobal tədbirlərə dair tövsiyələr verə biləcək BMT-nin Qlobal Bərpa üzrə Yüksək Səviyyəli Panelinin yaradılmasını məqsədəuyğun hesab edir.

Sonra plenar iclasın 12 məsələdən ibarət gündəliyi təsdiq olunub və cari məsələlərin müzakirəsinə başlanıb. Cari məsələlərin müzakirəsində komitə sədri Zahid Oruc, deputatlardan Məlahət İbrahimqızı, Razi Nurullayev, Fazil Mustafa, Əli Məsimli, Elman Nəsirov, Elşən Musayev, Tural Gəncəliyev, Ramin Məmmədov, Müşfiq Cəfərov çıxış ediblər.

Deputatlar Türkiyə Cümhuriyyətinin qurulmasının 98-ci ildönümü münasibətilə Milli Məclisin sədri Sahibə Qafarovanın TBMM sədri Mustafa Şentopa təbrik məktubu göndərməsini təqdir edərək Türkiyə dövlətinə və xalqına təbriklərini çatdırıblar. Onlar Azərbaycan-Türkiyə qardaşlığının bundan sonra da davamlı olaraq möhkəmlənəcəyinə və regionda təhlükəsizliyin, sülhün, sabitliyin təminatçısı olacağına əminliklərini ifadə ediblər. Milli Məclis sədrinin başçılığı ilə parlament nümayəndə heyətinin Parlament sədrlərinin Avropa konfransında iştirakının əhəmiyyətindən danışan deputatlar Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bu kimi səfərlərin önəmli rol oynadığını bildiriblər.

Çıxışlarda gündəmdə olan və seçiciləri narahat edən bir sıra məsələlər diqqətə çatdırılıb. Deputatlar "Freedom House"un bu həftə Azərbaycan haqqında verdiyi qiymətləndirmənin, onunla eyni ampluada çıxış edən "The National İnterest" dərgisində ölkəmiz əleyhinə dərc olunan məqalənin böhtan xarakterli və qərəzli olduğunu qeyd ediblər.

Sonra Milli Məclis gündəlikdəki məsələlərin müzakirəsinə başlayıb. Birinci olaraq müzakirəyə çıxarılan "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı arasında FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı haqqında" Sazişin qüvvədəolma müddətinin uzadılmasına dair Protokol"un təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev məlumat verib.

Bildirilib ki, sənədə əsasən, 2015-ci il mayın 25-də imzalanmış Sazişin qüvvədəolma müddəti tərəflərin Saziş üzrə öhdəliklərin yerinə yetirilməsinin davam etdirilməsi və başa çatdırılması məqsədilə bu ilin sonunadək uzadılacaq. Sənədin müzakirəsində Qüdrət Həsənquliyevin və Səməd Seyidovun fikirləri dinlənilib. Qanun layihəsi səsvermədən sonra tək oxunuşla qəbul edilib.

Sonra müzakirəyə çıxarılan "Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacda Səfirliyinin təsis edilməsi haqqında" qanun layihəsi barədə məlumat verən parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Azərbaycanla Vatikan arasındakı münasibətlərə diqqət çəkib.

Qanun layihəsi ilə bağlı Milli Məclis sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli söz alıb. Bildirib ki, dini sahədə dünya siyasətinə böyük təsiri olan bir dövlətlə - Vatikanla diplomatik münasibətlərin səfirlər müstəvisində qurulması birmənalı şəkildə Azərbaycan dövlətinin və xalqının mənafeyinə xidmət edir. Bu qanun layihəsini də deputatlar tək oxunuşla qəbul ediblər.

Sonra Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirəyə çıxarılıb. Sənəd haqqında Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, irəli sürülən dəyişiklikdə 2021-ci il 15 oktyabr tarixli "Müstəqillik Günü haqqında" Qanuna uyğun olaraq Əmək Məcəlləsində də mayın 28-nin Müstəqillik Günü, oktyabrın 18-nin Müstəqilliyin Bərpası Günü kimi qeyd edilməsi nəzərdə tutulub.

Layihənin müzakirəsində söz alan deputatlar Fazil Mustafa, Əli Məsimli, Hikmət Məmmədov, Sabir Rüstəmxanlı məsələ barədə fikirlərini açıqlayıblar. Layihə səsə qoyularaq qəbul edilib.

Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edib. Komitə sədri bildirib ki, dəyişiklikdə "daxili emal" xüsusi gömrük proseduru altında malların idxalı zamanı sahibkarlardan tələb olunan maliyyə təminatının məcburi olmaması təklif edilib. Birinci və ikinci oxunuşlarda heç bir təklif olmadığı üçün mətn olduğu kimi saxlanılıb.

Sənədlə bağlı Milli Məclis sədrinin müavini, parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli və Tahir Kərimlinin fikirləri dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəliyin 5-ci məsələsi olan "Valyuta tənzimi haqqında", "Kredit ittifaqları haqqında", "Banklar haqqında", "Poçt haqqında", "Mühasibat uçotu haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Kredit büroları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə məlumat verib. O, bildirib ki, layihə "Mühasibat uçotu haqqında" Qanuna uyğunlaşma xarakteri daşıyır, sənədin əvvəlki oxunuşlarında heç bir irad və təklif bildirilməyib. Layihə səsə qoyularaq təsdiqlənib.

Üçüncü oxunuşda olan digər qanun layihəsi "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda dəyişiklik edilməsi barədə idi. Sənəd haqqında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verib. Qeyd edilib ki, dəyişikliyə əsasən icbari tibbi sığortanın xidmətlər zərfinə daxil olmayan və dövlət tibb müəssisələri tərəfindən əhaliyə ödənişli əsaslarla göstərilən tibbi xidmətlərin tarifləri, habelə sığortaolunan hesab edilməyən şəxslərə göstərilən tibbi xidmətlərin tariflərini müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan təsdiq edəcək. O, layihənin ikinci oxunuşunda deputatların səhiyyə sahəsi ilə bağlı qaldırdığı məsələlərə də aydınlıq gətirib.

Musa Quliyev, Qüdrət Həsənquliyev, Qənirə Paşayeva layihə ilə bağlı müzakirələrdə çıxış edib suallarını səsləndiriblər, fikirlərini bildiriblər. Əhliman Əmiraslanov qaldırılan məsələlərlə aydınlıq gətirdikdən sonra layihə səsə qoyularaq qəbul edilib.

Mülki Məcəllədə, "Müflisləşmə və iflas haqqında", "İcra haqqında", "Banklar haqqında", "Teatr və teatr fəaliyyəti haqqında", "Sığorta fəaliyyəti haqqında", "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" və "Məşğulluq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunun layihəsini (üçüncü oxunuş) də Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib. Sənədlə bağlı ikinci oxunuşdan sonra komitəyə heç bir təklifin daxil olmadığını deyən komitə sədri layihənin səsə qoyulmasını təklif edib. Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Parlamentin spikeri bildirib ki, bununla da üçüncü oxunuşda olan qanun layihələrinin qəbulu başa çatıb, növbəti 4 məsələ ikinci oxunuşda olan qanun layihələridir. İkinci oxunuşda müzakirəyə çıxarılan "Təhsil haqqında" Qanunda dəyişiklik edilməsi barədə və "Peşə təhsili haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri isə bir-biri ilə bağlı olduğu üçün bir yerdə təqdim olunub.

Layihələr barədə məlumat verən Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev hər iki sənədin birinci oxunuşda geniş müzakirələrində deputatların qaldırdığı məsələlərlə bağlı arayış verib, komitədə ikinci oxunuşda müzakirədə təklif olunan layihələrdəki mətnlərin eyni olması ilə bağlı redaktə xarakterli texniki düzəlişin mahiyyətcə heç nəyi dəyişdirmədiyini bildirib. Deputat Vüqar Bayramovun və Siyavuş Novruzovun çıxışları da dinlənildikdən sonra hər iki qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda təsdiqlənib.

Gündəliyin sonuncu məsələsi olan "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 30 illiyi (1992-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "Gömrük orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynlinin təqdimatından sonra deputatlar tərəfindən səsə qoyularaq birinci oxunuşda qəbul olunub. Bununla da Milli Məclisin növbəti iclası başa çatıb.

# Ermənistanın ekoloji terroru

***Azərbaycan öz təbiəti, florası və faunası ilə zəngin bir dövlətdir. Bu ərazinin çayı, dənizi, dağı və s. ölkəmizin zəngin və təkrarsız bir təbiətə malik olmasını göstərir. Ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasətinin nəticəsində ölkəmizin təbətinə də ciddi ziyan dəymiş, həmin ərazilərdə ekoloji tarazlıq pozulmuşdur.***




Belə ki, Azərbaycanın 30 ilə yaxın işğal altında olmuş ərazilərində ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara böyük zərbə dəymişdir. Ekoloji terror aktları törədərək meşələri yandıraraq öz hərbi məqsədləri üçün bundan istifadə etmişdir. Milli parklar da daxil olmaqla qorunan təbiət

## Dövlət başçısının Sərəncamı ilə Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyəti bərpa ediləcək

əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən genişmiqyaslı yanğınlara səbəb olan raket atəşinə belə tutulmuşdur. Azərbaycanın "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş nadir təbiət inciləri məhv edilib, flora və faunaya külli miqdarda ziyan dəyib. Ermənilərin törətdikləri ekoloji terror ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaların, o cümlədən, "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında BMT konvensiyasının pozulması deməkdir. Erməni qəsbkarlar ərazilərimizi işğal altında saxladıqları dövrdə, Bəsitçay Dövlət Təbiət Qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıblar. Bu gün işğaldan azad olunan ərazilərdə böyük abadlıq və quruculuq işlərinə başlanılıb. Eləcə də təbiətə yeni bir nəfəs gəlib. Yaşıllıqlar salınır, ağaclar əkilir, ekoloji mühit təmizlənir.

Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyətinin təşkili ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, işğaldan azad olunan ərazilərdə ətraf mühitin sağlamlaşdırılması və təbii sərvətlərdən dayanıqlı istifadənin təmin edilməsi, xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin, nadir təbiət komplekslərinin və obyektlərinin təbii vəziyyətdə qorunub saxlanılması məqsədilə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunun inzibati ərazisində 107 hektar sahədə yerləşən Azərbaycan Respublikasının Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyəti bərpa ediləcək.

Xatırladaq ki, Bəsitçay Dövlət Təbiət Qoruğu nadir Şərq çinarının qorunub saxlanılması məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 4 iyul 1974-cü il tarixli qərarı ilə 107 hektar ərazidə yaradılıb. Qoruq Zəngilan rayonunda Kiçik Qafqaz dağlarının cənubi-şərq hissəsinin Bəsitçay ətrafı boyunca ərazini əhatə edir. Çinarlıq qoruq ərazisinin 93,5%-ni təşkil edir. Qoruq ərazisinin landşaft kompleksini, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilib. Dünyada çinarın 7 növü var ki, Azərbaycanda isə onun yalnız bir növü - şərq çinarı inkişaf edir. Şərq çinarının çoxsahəli əhəmiyyətini, dünyada az yayılmasını, nadir bitki olmasını və son əsrlərdə xeyli azalmasını nəzərə alaraq, onun adı Azərbaycanın "Qırmızı Kitabı"na yazılmışdır. Mənbələrdə qeyd edilir ki, Bəsitçay dövlət təbiət qoruğunun 100 hektarını çinar meşələri tutur. Qoruqdakı çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 m, orta diametri isə 1 m-dir. Bəsitçay dövlət təbiət qoruğu 27 il Ermənistan ordusunun işğalı altında olub və qoruq məhv edilmişdir. Bəsitçayın əsas təbiət kompleksi sayılan 200 illik tarixə malik çinar ağacları qəddarcasına kökündən çıxarılaraq məişətdə istifadə edilib. Bu, erməni vandalizminin növbəti əməlləridir.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində qarşıda duran əsas vəzifələrdən biri də məhz həmin ərazilərdə bioloji müxtəlifliyin, habelə nadir və itməkdə olan bitki növlərinin bərpa edilərək sağlamlaşdırılmasıdır. Sərəncamda qeyd olunduğu kimi, bu ərazilərdə müasir yanaşmaların tətbiqi əsasında unikal meşə fondunun və mühafizə olunan təbiət komplekslərinin fəaliyyətinin bərpa edilməsi bütövlükdə regionun "yaşıl zona"ya çevrilməsinə şərait yaradacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Gənclər Birliyinin nümayəndə heyəti ilə Xarkov şəhər meriyasının rəhbərliyi görüşüb







*Ukraynaya səfər çərçivəsində Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin nümayəndə heyəti ilə Xarkov Dövlət Vilayət Administrasiyasının rəhbərliyi arasında görüş keçirilib.*

YAP Gənclər Birliyinin nümayəndə heyətini salamlayan Xarkov Vilayət Şurasının sədr müavini Valeriya Murayeva bu səfərin iki ölkə gəncləri arasında münasibətlərin dərinləşməsinə töhfə verəcəyini bildirib. O, Xarkov şəhər meriyasının azərbaycanlı və ukraynalı gənclərin birgə təşəbbüslərini, layihələrini hər zaman dəstəkləyəcəyini deyib.

Xarkov Vilayət Dövlət Administrasiyasının sədr müavini Yevgeni Gritskov əhalisinin böyük əksəriyyətinin gənclərdən ibarət olan Xarkov vilayətində gənclərin inkişafını hədəfləyən müxtəlif layihələrin və proqramların icra edildiyini qeyd edib. O bu istiqamətdə birgə əməkdaşlığın perspektivləri haqqında fikirlərini bölüşüb.

göstərilən qonaqpərvərliyə görə Xarkov şəhər meriyasının rəhbərliyinə təşəkkürünü bildirən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov 44 günlük Vətən Müharibəsində Azərbaycanın qazandığı tarixi qələbədən danışıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi ədalətin bərpa olunaraq ərazi bütövlüyümüzün təmin olunduğunu diqqətə çatdırıb.

YAP Gənclər Birliyinin ukraynalı gənclərlə əməkdaşlıqda maraqlı olduğunu söyləyən B.İslamov səfər çərçivəsində keçirilən görüşlərin və aparılan müzakirələrin bu istiqamətdə önəmini vurğulayıb. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub və birgə xatirə şəkli çəkdirilib.

# Yeni Azərbaycan Partiyası Mərkəzçi Demokrat İnternasionalı İcra Komitəsinin iclasında təmsil olunub




***Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ramin Məmmədov Mərkəzçi Demokrat İnternasionalı (CDİ) İcra Komitəsinin iclasında onlayn formada iştirak edib.***

İclasda CDİ-ın ötən dövr ərzindəki fəaliyyətinə dair qurumun Prezidentinin və Baş katibinin hesabatları dinlənilib. Daha sonra Sloveniya, Macarıstan və Xorvatiyanın baş nazirləri çıxış ediblər. İclasda həmçinin, İcra Komitəsinin yeni üzvləri seçilib, büdcə müzakirələri aparılıb və regional nümayəndəliklər təsis olunub.

# BMT açıqladı: "Mina ilə çirklənmiş ərazilərdə Azərbaycanın həyata keçirdiyi bərpa işləri təqdirəlayiqdir"

Oktyabrın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Avropa Regional Bürosunun direktor müavini Angela Li Rosinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə, həmçinin Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov iştirak edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı 2021-ci il oktyabrın 24-29-da Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə A. Li Rosinin başçılığı ilə həyata keçirilən BMT QAK-ın missiyasının nəticələri müzakirə edilib.

A. Li Rosi Azərbaycan tərəfindən BMT QAK-a göstərilən dəstəyə və yüksəksəviyyəli əməkdaşlığa görə təşəkkürünü ifadə edib. O, səfərin məqsədinin məcburi köçkünlər və qaçqınların geri qayıdışının şərtlərinin və perspektivlərinin, habelə 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatda BMT QAK üçün nəzərdə tutulan rolun konkret aspektlərinin müzakirə edilməsi olduğunu bildirib. Missiyanın Ağdam, Tərtər, Bərdə, Füzuli, Cəbrayıl və Zəngilana səfər etdiyini, Azərbaycan qarşısında bu ərazilərin bərpası ilə əlaqədar duran vəzifənin miqyasını öz gözləri ilə gördüklərini bildirən A. Li Rosi dağıntılar və mina ilə çirklənmənin yüksək olmasına baxmayaraq, hökumət tərəfindən sürətlə həyata keçirilən bərpa işlərinin təqdirəlayiq olduğunu vurğulayıb.

Nazir Ceyhun Bayramov ölkəmizdə Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış genişmiqyaslı məcburi köçürülmə problemi, əhalinin adambaşına düşən məcburi köçkün sayına görə dünyada ilk yerlərdən birini tutan Azərbaycanda məcburi köçkünlərin sosial problemlərinin həlli sahəsində görülmüş işlər barədə qonaqlara məlumat verib. Humanitar təşkilatların ölkəmizdəki fəaliyyətinə yaradılmış şəraitdən bəhs edən nazir Azərbaycanın BMT QAK-la əməkdaşlığa önəm verdiyini, bu təşkilat tərəfindən 1990-cı illərdə qaçqın və məcburi köçkünlərə göstərilən yardımın unudulmadığını vurğulayıb. İşğaldan azad edilmiş ərazilərdə mina təhlükəsi barədə qonaqları məlumatlandıran Ceyhun Bayramov ötən ilin noyabrından bəri Azərbaycanda 167 nəfərin mina qurbanına çevrildiyini, onların içində öz doğma torpaqlarını görmək üçün səbirsizlənən məcburi köçkünlərin olduğunu və mina xəritələrinin Ermənistan tərəfindən Azərbaycana təhvil verilməsinin məcburi köçkünlərin təhlükəsiz qayıdışı üçün önəmli olmasını vurğulayıb.

Görüşdə tərəflər, eyni zamanda, işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində Azərbaycan hökuməti tərəfindən atılan addımlar, avtomobil və dəmir yollarının, infrastrukturun sürətli bərpası, "ağıllı kənd" modeli əsasında yenidən qurulan kəndlər və Füzuli şəhərində qısa müddətdə beynəlxalq hava limanının inşa edilməsi ilə bağlı müzakirələr aparıb, məcburi köçkünlərin öz doğma torpaqlarına ləyaqətli və təhlükəsiz qayıdışı üçün əməkdaşlığın davam etdirilməsinə qarşılıqlı maraqlarını ifadə ediblər.

# Qalib sərkərdə, Məğlubedilməz ordu, Qəhrəman xalq

***Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatı "İnşaatçılar prospekti, 136" ünvanında yerləşən ərazi partiya təşkilatı ilə "Qalib sərkərdə, Məğlubedilməz ordu, Qəhrəman xalq" mövzusunda tədbiri keçirilib. SİA-nın məlumatına görə, ilk öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***







Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev dövlətimizin tarixi qələbəsindən söz açıb. O qeyd edib ki, İkinci Qarabağ savaşının cəmi 44 günə qələbə ilə bitməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyinin, ordumuzun müasir hərbi texnika ilə təchizatının, əsgər və zabitlərimizin hazırlıqlı olmasının, xalqımızın birliyinin nəticəsində mümkün olub.

Sonra çıxış edən Dövlət Statistika Komitəsinin sədr müavini Yusif Yusifov Azərbaycanın bu qələbəni şəhidlərin qanı, canı hesabına qazandığını, Vətən Müharibəsi başlayan ilk gündən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun irəliləyərək, düşməni işğal olunmuş torpaqlarımızdan qovduğunu qeyd edib.

Millət Vəkili Səbinə Xasayeva bildirib ki, Azərbaycan Ordusunun qəhrəmanlığı, Xalqın Ali Baş Komandan ətrafında sıx birləşməsi, vətəndaş həmrəyliyi Şanlı ordumuzun qələbəsini daha da sürətləndirdi. 44 günlük Vətən Müharibəsində qazanılar qələbə xalqımızın birliyinin və Vətən eşqinin tərənnümüdür.

"İnşaatçılar prospekti, 136" ƏPT-nın sədri Sevda Süleymanova Vətən müharibəsində qazandığımız zəfərin ərazi bütövlüyümüzü, tarixi ədaləti bərpa etməklə yanaşı, həm də vətən həsrəti ilə yaşayan soydaşlarımızın qəlbində yenidən həyat işığı yandırdığını, onlara doğma torpaqlarına dönmək imkanını yaratdığını vurğulayıb.

Daha sonra çıxış edən Bakı Dövlət Universiteti Tarix fakültəsinin dekanı, professor İbrahim Zeynalov Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış Zəfərin müəllifinin Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin olduğunu faktlarla diqqətə çatdırıb.

# Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadıldı

***Nazirlər Kabineti Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə qərar verib.***

SİA xəbər verir ki, qərarda deyilir: "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan



Respublikasının Nazirlər Kabineti qərara alır:

- Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il 1 yanvar saat 06:00-dək uzadılsın.

- "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının 1.1-ci bəndində "2021-ci il 1 noyabr" sözləri "2022-ci il 1 yanvar" sözləri ilə əvəz edilsin.

# Qagik Melkonyan: "Onların Azərbaycan-Naxçıvan yolları olmalıdır"

Ermənistan parlamentinin "Vətəndaş sazişi" fraksiyasının üzvü Qagik Melkonyan inandırmağa çalışıb ki, yaxın günlərdə Moskvada rəsmi görüşlərin keçirilməsi planlaşdırılmır. Bütövlükdə görüşlərə gələndə onlar baş tutmalıdır, çünki sərhədlərin demarkasiyası və delimitasiyası ilə bağlı məsələlər qalır. SİA xəbər verir ki, bu haqda "Joxovurd" yazır. Deputat bildirib ki, Azərbaycan Ermənistan üzərindən Naxçıvana yol alacaq: "Biz bunu yol adlandırırıq, onlar isə dəhliz. Biz indi Qarabağa necə daxil olub və çıxırıq? Onlar da bu imkandan istifadə etməlidirlər, onların Azərbaycan-Naxçıvan yolları olmalıdır".

**Rövşən**



***Azərbaycan son 200 illik tarixində itirdiyi torpaqlarını qaytara bilmədiyi bir halda, xalqımızın 30 illik intizarına şanlı ordumuzun apardığı 44 günlük müharibə son qoydu. Prezident, Ali Baş Komandanımız İlham Əliyevin güclü siyasi iradəsi, qətiyyəti, uzaqgörən siyasəti, vətəninə və torpağına olan böyük məhəbbəti, Güclü Ordumuzun, igid əsgər və zabitlərimizin şücaəti ilə torpaqlarımız işğaldan azad edildi. Bu, Azərbaycanın tarixi, parlaq qələbəsidir. Bu qələbə ilə Azərbaycan dünyaya sübut etdi ki, özünün pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır.***



# Xalq-iqtidar-ordu birliyinin Qələbə Zəfəri!

## *İlham Əliyev: "Bu Qələbə bizim xalqımıza yaraşır, igid oğullarımıza yaraşır, dövlətimizə yaraşır və bu Qələbə gücümüzü göstərdi"*

### Təhlil

Və sübut etdi ki, Azərbaycan haqqın, ədalətin, ərazi bütövlüyünün bərpası, öz torpağında öz torpağı uğrunda vuruşub. Siyasi meydanda işğalçı düşmənə layiq olduğu yerini göstərməklə bərabər, bir daha sübut etdi ki, bizi öz haqq işimizdən heç bir qüvvə çəkindirə bilməz. Artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur və bu gün Prezidentin imzaladığı 2 dekabr 2020-ci il tarixli Sərəncamları əsasında hər il 8 noyabrda Zəfər Günü və 27 sentyabr Anım Günü təsis edildi. Artıq bu tarixi günün bir ilinin bayram edilməsinə sayılı günlər qalıb. Bu tarix Azərbaycan tarixinə qızıl hərflərlə yazıldığı - xalq-iqtidar-ordu birliyinin Qələbə Zəfəri, bayramı günüdür. Və bu gün Güclü Ordumuzla, qalib Azərbaycanın vətəndaşı olmağımızla qürur duyuruq. Qürur duyuruq ki, uğurlarımızın təməlində xalq-iqtidar-ordu birliyi dayanır və 44 günlük Vətən Müharibəsində bu birlik daha da bərkiyərək dəmir yumruğa çevrildi. O dəmir yumruq ki, düşmənin başından vurmaqla belini qırdı, Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini düşmən əsarətindən azad etdi. Bütövlükdə qəhrəman əsgər və zabitlərimiz 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəklikləri düşmən tapdağından təmizlədi. Noyabrın 8-də isə Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra 9 noyabr Dövlət Bayrağı Günündə Prezident İlham Əliyev daha 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyini bildirərək, ölkə ictimaiyyətini yenidən sevindirdi. Beləliklə, Şuşanın alınması Ermənistanı tam tərksilah etdi, onun bütün manevr imkanları puç oldu. Ulu Öndərimizin dediyi kimi, "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur".

İndi qətiyyətlə demək olar ki, bu gün xalq orduya inanır, ordu xalqa güvənir. Deməli, yaradılan nümunəvi xidməti şəraitin və hərbi xidmətin düzgün təşkilinin, hərbi qulluqçularımızın yüksək intizama və döyüş qabiliyyətinə malik olmasının, əldə olunan uğurların və ən nəhayət, qazanılan zəfərlərin əsasında xalq-iqtidar- ordu birliyi dayanır. Ən nəhayət, ölkədə yaradılmış iqtidar-xalq birliyi "çəkici bir zindana vurmağa" imkan yaratdı. Bir sözlə, xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin mövcud olması ordumuzun gücünü daha da artırır, zəfərdən zəfərə aparır. Bununla da xalq-iqtidar-ordu birliyi ölkəmizin uğurlu inkişafını müəyyən edir. Dövlətimizin başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, xalqın iradəsi, dövlətin qətiyyəti, davamlı islahatlar Azərbaycana möhtəşəm uğurlar qazandırıb, dünya miqyasında tanıdıb. Məhz əldə edilən bu kimi zəminlər əsasında Azərbaycan müasir hərb tarixində yeniliyə imza atdı.

### Prezident İlham Əliyev: "Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür"

Dövlət başçımız İlham Əliyev 18 illik Prezidentlik fəaliyyətində ancaq və ancaq düşmən tapdağında olan torpaqlarımızın azad edilməsi ilə bağlı yüksək tribunalarda, verdiyi müsahibələrində qətiyyətlə çıxışları, söylədiyi hər sözü, hər kəlməsi, Güclü Ordumuzun, Rəşadətli əsgərlərimizin və nəhayət, dövlət başçımızla xalqımızın bir olmağımız 30 illik həsrətimizə son qoyuldu! Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə Ermənistan siyasi rəhbərliyinə, erməni xalqına müraciət edərək, onları münaqişənin sülh yolu ilə həll olunmasına çağıraraq bildirib ki, qan tökülmədən torpaqlarımızdan çıxın. Bizim başqasının torpağında gözümüz yoxdur: "30 ildir ki, Azərbaycan Ermənistan təcavüzündən əziyyət çəkir. Biz bu barədə dəfələrlə BMT başda olmaqla, dünyanın bütün beynəlxalq təşkilatlarını məlumatlandırmışıq. Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnamə kağız üzərində qalıb".

Dövlət başçısı bildirib ki, erməni vəhşiliyinin cavabı verilmədikcə, işğalçı ölkə öz cızığından çıxdı, bunun bir sonu olmalı idi və cinayətkar Ermənistan sentyabrın 27-də Azərbaycana qarşı növbəti təxribat cəhdini reallaşdırdı. Düşmən artilleriya qurğularından istifadə edərək mülki əhalini və yaşayış məntəqələrini hədəfə aldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan düşmənin hərbi təxribatının qarşısının alınması üçün ordumuza əmr verdi. Güclü Azərbaycan Ordusu, məğrur və rəşadətli əsgərlərimiz Ali Baş Komandanın əmrlərini yerinə yetirərək Azərbaycanımızın şanlı tarixini yazır. Bu, o əsgərlərimizdir ki, düşmənləri 30 il işğal altında saxladıqları torpaqlapımızdan iti qovan kimi qovurlar: "Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax, budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!"

### "Bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəri, Azərbaycan zabitidir"

Bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan əsgəri Vətən səngərində qəhrəmancasına döyüşə-döyüşə bərkiyərək rəşadətli Ordumuzun gücü ilə Azərbaycan tarixinə qələbələr yazır. Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribat zamanı döyüşlərdə haqq yolunda, Vətən yolunda canından keçərək yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı demişdir: "Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. Bu tarixi missiyanı siz icra etmisiniz - Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib".

Dövlətimizin başçısı deyib: "Əlbəttə ki, bizim güclü ordumuz var, texniki təchizat da yüksək səviyyədədir. Bütün dünya gördü ki, biz hansı texniki imkanlardan istifadə edirik. Onu da deyə bilərəm ki, bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda, operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir".

Prezident qeyd edib ki, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir: "Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".

Çünki bizim işimiz haqq işidir. Dövlət başçımızın dediyi kimi: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək!".

Budur, Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin proqmatik siyasəti! Budur, xalq-iqtidar-ordu birliyi. Xalq-Prezident və Ordu birliyi və həmrəyliyi Böyük qələbəyə doğru gedən yolun əsas hərbi-siyasi arsenalıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qalib Azərbaycan əsgərinin fərqli mövqeyini və qələbə əzmini qiymətləndirərək dediyi aşağıdakı sözlər obyektiv reallığın ifadəsidir: "Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında?".

Bəli, bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib.

Bir sözlə, bu gün böyük inam və qətiyyətlə ifadə edirik ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci ilin Qalib sərkərdəsi, Azərbaycan Ordusu ən peşəkar və döyüş ruhlu Ordu, Azərbaycan xalqı isə ən qəhrəman xalq kimi tarixə qızıl hərflərlə yazıldı. Və cənab İlham Əliyevin yeni-yeni hədəflərə hesablanmış strategiyasına uyğun olaraq Azərbaycan inkişaf, tərəqqi yolunda daha da böyük addımlarla irəliləyəcək. Çünki Azərbaycan Ordusu məğlubedilməzdir, onun qarşısında düşmən çox aciz və zəifdir.

***RƏFİQƏ HÜSEYNOVA***

# Baş Qərargah rəisi, Zaxarova, konqresmen və Paşinyan...


V.VƏLİYEV

***44 günlük müharibədən keçən 1 il ərzində Ermənistanda siyasi mühit hələ də dumanlı olaraq qalır, aydınlaşacağı isə gözlənilmir. Hər halda siyasi analitiklərin gəldiyi qənaət və proqnoz belədir. Məğlubiyyət şokundan ayılmayan Ermənistanın hərbi-siyasi elitası xalqı düşürdükləri çətin durumdan çıxara bilmək üçün konkret proqram ortaya qoya bilmir.***

Köhnələr indiki hakimiyyətdən məğlubiyyətin səbəblərini, kapitulyasiyanın hesabını soruşmaq istəyən kimi əks həmlə ilə üzləşirlər. Bu dəfə də Paşinyanın komandası Koçaryan, Sarkisyan və onların Qarabağdakı separatçı uzantılarından 30 il ərzində Qarabağın inkişafına, buradakı ermənilərin sosial-məişət problemlərinin həllinə, yeni infrastrukturların yaradılmasına Ermənistanın dövlət büdcəsindən ayrılan və erməni diasporundan gələn bütövlükdə 40 milyard dollardan (?!) çox vəsaitin hara xərcləndiyini, pulların hansı prezidentin cibinə nə qədər axdığını üzə çıxaran komissiyanın hesabatının bir qismini mediaya ötürürlər. Dərhal siyasi bataqlıqdakıların səsləri kəsilir. Deməli hədəf düzgün seçilib və atış da uğurlu alınıb, onluğa dəyib.

Yəqin ki, fikir vermisiniz, son zamanlar Koçaryan və Sarkisyandan, Qukasyan və Bako Caakyandan səs-səmir yoxdur, sanki siyasi arenada, işğal altındakı torpaqlarda qazılmış səngərlərdə bağıran, hər kəsi hədələyən bunlar deyildi. Bu gün hətta məğlubiyyət aktına qol çəkən Paşinyanı belə ittiham etməyə cəsarətləri çatmır. Niyə? Çünki, özlərinin də məğlubiyyətdə payları az deyil. Ermənilərə və Ermənistana vurduqları ziyan ölçüyəgəlməzdir. Onların hakimiyyətdə olduğu vaxtlarda, guya atəşkəsin hökm sürdüyü dönəmlərdə 44 günlük müharibədə ölən erməni əsgərlərin iki qat artığı itirilmişdi. Daxili nizam-intizam, ”dedovşina” və şəraitsizlikdən bezərək intihar edənlərin, özlərinin basdırdığı minaya düşənlərin, bir-birini güllələyənlərin sayı minlərlədir. Bəli, bu kimi faktlar ”eks”ləri susmağa məcbur edir. Onları üzə çıxması heç indiki hakimiyyətə də sərf etmir. Çünki dünyaya yaydıqları saxta ”məğlubedilməz erməni ordusu” mifi darmadağın ola bilər. Hələlik ayıblarına qısılıb dinməməyi üstün tuturlar.

Bütün bunlara rəğmən Ermənistanın təbliğat ruporları yenə səs-səsə veriblər. Bu gün Ermənistan özünü ”yaşayır və yaradır”mış kimi göstərməyə çalışır.

Erməni mətbuatı Rusiya Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini, general-polkovnik Sergey İstrakovun Baş nazir Nikol Paşinyan tərəfindən qəbul edilməsindən, həmsöhbətlərin Ermənistan və Rusiya arasında hərbi-texniki əməkdaşlıq məsələlərini müzakirə etdiklərindən yazıb.

Əlbəttə, indiki halda Ermənistanın müdafiə qabiliyyətini artırmaq imitasiyası yaratmaqdan başqa əlacı yoxdur.

Ermənistanda müzakirə edilən mövzulardan biri də Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin rəhbəri Mariya Zaxarovanın Transqafqaz nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması ilə bağlı dediyi fikirlərdir. Zaxarova bildirib ki, bütün məsələlər ən yaxşı şəkildə Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinlərinin həmsədrlik etdiyi üçtərəfli işçi qrupu çərçivəsində nəzərdən keçirilir və həll edilir.

Bu fikirlərə də Ermənistanda birmənalı reaksiya verilməyib. Erməni siyasətçilər, xüsusən də müxalifət mənsubları bu yanaşmanı Zaxarovanın şəxsi mülahizəsi kimi yozmağa çalışıblar. Halbuki, regionda kommunikasi xəttlərinin açılması ilə bağlı rəsmi sənəd imzalanıb və iş Zəngəzur dəhlizi də daxil olmaqla bütün kommunikasiya xətlərinin işlək vəziyyətə gətirilməsi üzərində gedir. MDB dövlət başçılarının görüşündə çıxışı zamanı Ermənistanın baş naziri Paşinyan da məsələnin izahına xeyli vaxt ayırdı və bunun ermənilərə hansı dividentlər gətirəcəyini təsvir etdi.

Erməni müxbirlər okeanın o tayına boylanmağı da unutmayıblar. Ermənistanın ABŞ-dakı səfiri Lilit Makuntsun Konqresin erməni məsələləri üzrə komissiyasının üzvü Anna Eşu ilə görüşünu geniş işıqlandırıblar. Görüş zamanı xanım konqresmen iki ölkə arasında münasibətlərə toxunub və sonda... 44 günlük müharibəyə də qismən toxunub. Niyə qismən dedik, çünki səfirin israrından, dəfələrlə təkrarlamasından sonra Eşu narahatlığını bildirib və bütün çətinliklərin öhdəsindən gəlməkdə erməni xalqına dəstəyini ifadə edib.

Avropadan isə ermənilərə pis xəbər gəlib. Məlum olub ki, Ermənistan vətəndaşları bu gündən etibarən Hollandiyaya daxil olarkən, peyvənd olunsalar belə, mənfi koronavirus testi təqdim etməlidirlər.

Bu isə köç hazırlığı görən əksər erməniləri pərişan edib.

Ölkədaxili kriminal durum da pozitiv düşünməyə ”əlyeri” qoymur. Dünən axşam saatlarında İrəvanda daha bir səs-küylü kriminal hadisə baş verib. Saat 23:00 radələrində Erebuni Mərkəzi Xəstəxanasına ayaqlarından güllə yarası almış bir nəfər gətirilib.

Qarabağ müharibəsi zamanı fərarilik edənlərin, cəbhədən silahlarla qaçaraq İrəvanda sığınacaq tapanların əlində hər zaman atəşə hazır çoxlu silahlar var. Hökumət isə hələlik bu məsələni həll etməyə sadəcə vaxt tapa bilmir.

”Ermənistan” fraksiyasının rəhbəri, keçmiş müdafiə naziri Seyran Ohanyan ona parlament komissiyasının 2016-cı ilin aprel müharibəsi ilə bağlı hesabatının materialları ilə tanış olmağa icazə verilməməsindən şikayətlənib. Halbuki, bu məsələnin araşdırılmasından sonra keçmiş müdafiə naziri də daxil olmaqla ordudakı çetenin ifşa olunacağı və həbs ediləcəyi gün kimi aydındır.

Belə olan halda Seyran Ohanyan niyə canfəşanlıq edir?

Ermənistanın 2022-ci il büdcəsinin gəlirləri 1 trilyon 946 milyard dram təşkil edib. Bu da 2021-ci illə müqayisədə 17%, 2020-ci ildəkindən isə 25% çoxdur. Buna baxmayaraq Ermənistanın bütövlükdə dövlət büdcəsi Azərbaycanın tək hərbi büdcəsi qədər deyil. Hələ də revanşdan danışırlar...

# Sosial şəbəkələri media kimi təqdim etmək NƏ DƏRƏCƏDƏ DOĞRUDUR?

*"Sosial media ifadəsinin özü aydınlaşdırılmalıdır. Ümumən belə bir ifadə işlətmək və sosial şəbəkələri media kimi təqdim etmək nə dərəcədə doğrudur?". Bu sözləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin Baş redaktoru Aydın Quliyev deyib.*

Onun sözlərinə görə, sosial media anlayışının özü bir-birinə qəti şəkildə aidiyyatı olmayan iki sözün birləşdirilməsindən ibarətdir: ”Bu sosial və media sözləridir. Media deyəndə biz ənənəvi mətbuatı, medianı, internet imkanları üzərində yaranan onlayn medianı, televeziyanı və s. nəzərdə tuturuq. Sosial sözü isə tamamilə başqa bir anlayışdır. Bunu həm sosiologiya elminə uyğun təhlil etmək lazımdır, həm cəmiyyətin insanların toplumu kimi izah etmək lazımdır, həm də sosial şəbəkə anlayışında izah etmək lazımdır. Fikrimcə, əvvəla sosial media anlayışını tam şəkildə kənara qoymaq lazımdır. Ona görə də, sosial şəbəkələr daha çox sosial bəla rolunu oynamağa başlayıb. Sözün açığı bu gün sosial şəbəkələrdə dünyanın istənilən ölkəsinin timsalında daha çox pozitiv, daha çox neqativ rol oynadığını söyləməkdə çətinlik çəkirəm.



Günümüzdə sosial şəbəkənin müsbət və mənfi tərəfləri sanki birbirini neytrallaşdırır. Çünki sosial şəbəkələrdə şəxsən hər hansı bir ciddi problemin müzakirəsini görməmişəm. Ona görə də sosial şəbəkələr hər kəsin öz düşüncəsini, duyğusunu ifadə edə biləcəyi açıq bir meydandır. Burada əslində ictimai rəy, fikir formalaşmır. Sadəcə olaraq hər bir kəs özünün mövqeyini başqalarına qəbul etdirməyə çalışdığı bir xaotik məkandır. Ənənəvi mediada, internet resurslarında cəmiyyət üçün təhlükəli məlumatların yayılmasına demək olar ki, çox nadir hallarda rast gəlmək olar. Amma sosial şəbəkələr yarandığı gündən daim təkzib olunan ziyanlı, dağıdıcı rol oynayan informasiya məkanından başqa bir şey deyil. Çox təəssüf ki, sosial şəbəkələrin fəaliyyətinin qarşısını almaq mümkünsüzdür. Ona görə də, sosial şəbəkələrin müsbət imkanlarından istifadə etməklə bərabər, onun mənfi cəhətlərinin qarşısını almaq barədə də düşünmək lazımdır”.




**Arzu Qurbanzadə**

# Dadı damaqdan getməyən MİLLİ YEMƏKLƏR

***Ölkəmizə qərbdən şərqə ölkənin hər yerindən fərqli dadlar, fərqli qoxular gəlir. Azərbaycana xas olan yeməklər o qədər məşhurdur ki, bəzən hətta qonşu dövlətlərin müzakirə mövzusuna çevrilir.***



Bəzən beynəlxalq mətbəx anlayışı yerli mətbəx anlayışı ilə qarışdırılır. Yerli mətbəx regionlara görə milli, regional, yerli şaxələndirilmiş yemək bişirmə və ləzzət təqdimetmə üsullarını müəyyən edir. Lakin dünya mətbəxini təsvir etmək üçün təkcə bu tərif kifayət deyil. Çünki dünya mətbəxinin tərifini verərkən bütün ölkələrin təamları buraya şamil olunur.

Azərbaycan mətbəxinin türk mətbəxi ilə bir çox ortaq cəhətləri var. Azərbaycanda ətli, tərəvəzli və xəmir xörəkləri onların pəhrizinin əsasını təşkil edir. Şorba və plov növlərinin böyük zövqlə istehlak edildiyi Azərbaycan mətbəxində müxtəlif reseptlərlə hazırlanan 100-dən çox plov növü var.

İnkişaf etmiş yemək mədəniyyətləri ilə 100 müxtəlif plov hazırlanan Azərbaycanda 30-dan çox dolma və dolma növləri damağı şənləndirir. İndi isə gəlin Azərbaycanın ən məşhur yeməklərinə nəzər salaq.

### Azərbaycanın ən məşhur yeməkləri



**Düşbərə**

Azərbaycanın ən məşhur yeməklərindən olan düşbərə Türk "Mantı"sına bənzər texnika ilə hazırlanır. Dana və ya quzu əti incə açılmış kiçik xəmirlərin içinə qatlanır, suda bişdikdən sonra sirkə və sarımsaq qatılıb sousla yeyilir.



**Piti**

Azərbaycanın məşhur xörəkləri arasında yer alan piti Anadolunun bir çox yerində hazırlanan "ət güveci"nə bənzər bir yemək növüdür. Xüsusilə Şəki şəhərində məşhur olan bu xörək quzu əti, gavalı qurusu, noxud, kartof, pomidor və müxtəlif ədviyyatlarla olur və təxminən 8 saat bişirildikdən sonra süfrəyə verilən yemək növüdür.

**Şah plovu**

Azərbaycan düyü sortları arasında bəlkə də ən məşhuru olan bu düyü növü plovların şahı hesab edildiyi üçün bu adla adlandırıl-



mışdır. Şah plovun içərisində ərik qurusu, quzu əti, gavalı, kişmiş, şabalıd kimi maddələr var və bu plov çöldən pərdə ilə əhatə olunub. Demək olar ki, Osmanlı mətbəxinin məhsuludur. Şah plov hazırlanması çox çətin, lakin özünəməxsus dadı olan Azərbaycan yeməyidir.

**Yarpaq dolması**



Azərbaycan dolması Anadoluda hazırlanan dolmadan çox kiçikdir və mütləq ətlə hazırlanır. Bu yemək süfrəyə verilərkən üzərinə sarımsaqlı qatıq tökülür. Yan tərəfdə isə soğan, pomidor-xiyar və təndir çörəyi əvəzolunmazdır.



**Ləvəngi**

Xüsusilə İran sərhədinə yaxın bölgədə hər gün istehlak edilən yeməkdir desək, mübaliğə etmiş olmarıq. Daha çox balıqla hazırlanan bu yemək qaz və toyuqla da hazırlanır. Yeməkdə üstünlük təşkil edən ləzzət alça turşusudur. İçərisinə tomat pastası, gavalı siropu, qoz və qara bibər qoyulan ət sobaya qoyulur. Fərqli bir dad olsa da çox ləzzətlidir.

Bunlardan başqa Azərbaycan mətbəxində dolma, qoğal, dovğa, qutab kimi müxtəlif dad növləri var ki, bunların hər biri Azərbaycan mətbəxinin nə qədər zəngin olduğunun ayrıca sübutudur.

SİA Azərbaycanın məşhur yeməkləri mövzusunda araşdırma apararaq, qida mütəxəssisləri, qida texnoloqları və usta aşpazların fikirlərini öyrənib.



**Sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova:** "Azərbaycan mətbəxi halhazırda gündəm mövzusudur. Əsasən də bəzi dietoloqlardır, bəzi özlərinə qida mütəxəssisləri deyən şəxslərdir ki, tam dərinliyini, tarixini bilmədən Azərbaycan mətbəxi haqqında xoşagəlməyən sözlər istifadə edirlər. Buna görə onu demək istəyirəm ki, Azərbaycan mətbəxi dünyanın ən qədim mətbəxlərindən hesab olunur və eyni zamanda, həddindən artıq zəngin, dadlıdır. Sadəcə, bir nüansı unutmamaq lazımdır ki, Azərbaycanın milli mətbəxinə daxil olan bütün yeməkləri düzgün bişirilmə qaydalarına əməl edərək hazırlamaq lazımdır. Həmin yeməklərin yanında hansı qidaların birlikdə yeyiləcəyi də əsas məqamlardan biridir ki, bir çox hallarda bunu unudurlar.

Təbii ki, əgər bunlara fikir versək bizim mətbəximiz Şərq mətbəxinə çox yaxındır və ona görə də ağız dadı olaraq Şərq ölkələri ilə daha çox mətbəximizdə bağlılıq görürəm. Bundan başqa Azərbaycan çox gözəl bir coğrafi mövqedə yerləşir ki, məhz 9 iqlim qurşağı buradadır. Bu əbəs yerə deyil ki, artıq bu iqlim qurşağının olması Azərbaycanın həm faunasına, həm də florasına təsir edir ki, bu da onun zənginliyi ilə ölçülür.

Təbii ki, hər bölgəmiz də yerləşdiyi yerinə, oranın iqliminə görə bitən bitkilərdən, orada olan yeyilməsi mümkün olan ev heyvanlarından hazırlanan yeməklər var ki, onlarla xarakterik olaraq seçilirlər.

Azərbaycan mətbəxinin şahı sayılan plovdan başlamaq istəyərdim. Çünki, Azərbaycan yeməkləri arasında ən çox yayılan, ən çox sevilən və adından da bəlli olduğu kimi plovu qeyd etmək istəyirəm. Plovun həddindən artıq çox növü var və bölgələrə görə dəyişir. Əsasən, Qarabağ plovundan danışmaq istəyərdim. Qarabağ plovu sümüksüz qoyun ətindən hazırlanır, qovurma şəklində olur və tərkibinə şabalıd, ərik, gavalı, kişmiş əlavə edilərək hazırlanır. Bu, sırf Qarabağa məxsus Şah plovdur. Ancaq təbii ki, bölgələrə görə bunu dəyişib toyuqla da bişirənlər, çığırtma şəklində də edənlər var.

Daha sonra Şəki ilə bağlı demək istəyərdim ki, Şəkidə də bir çox yeməklər məşhur olduğuna baxmayaraq, ən çox pitisi daha çox sevilir. Piti də yenə gördüyümüz kimi əgər düzgün hazırlanırsa çox faydalı bir yeməkdir. Tərkibinə yenə də yağlı qoyun əti, bəzən də olur ki, yağsız qoyun ətinin sümüksüz hissələrindən istifadə edirlər, bir parça quyruq atırlar. Yenə də burada noxud, şabalıd, bəzi yerlərdə kartof da olur amma Şəkiyə xüsusi olaraq xarakterikdirsə onlar kartof etmirlər. Bu da əsasən onunla bağlıdır ki, bu yeməyi daha çox qışda yeyirlər. Çünki qışda temperatur aşağı olduğundan soyuq olur və orqanizmi daha çox güclü saxlayaraq, soyuğa davamlı edir. Eyni zamanda, nahar yeməyində yeyilən piti təbii ki, orqanizmə ancaq enerji, sağlamlıq verə bilər. Mütləq şəkildə bu yeməkləri yeyərkən diqqət etmək lazımdır ki, axşam yeməklərində yeyib artıq kolori yığmayaq. Başqa yeməklərdən cənub bölgəsi Lənkəran, Masallı ləvəngisi ilə məşhurdur və ləvəngilər fərqli olur. Çünki o bölgədə balıqlar daha fərqli balıqlar olduğu, Xəzəryanı hissədə yerləşdiyi üçün Lənkəran balıq ləvəngisi daha məşhurdur. Balıq da tərkibinə görə həm çox faydalı, həm də qida dəyəri yüksəkdir.

Masallı da eynilə ləvəngi ilə məşhurdur. Lakin, onların meşələri çox olduğu üçün fərqli-fərqli quşlardan hazırlanan "Gərəf" olaraq daha çox tanınır. Bu quşun ləvəngisi ora üçün xarakterikdir və çox faydalı hesab olunur. Eyni zamanda da o bölgədə olanların daha çox sevdiyi yeməklərdən biridir.

*Ardı Səh. 10*

# Dadı damaqdan getməyən MİLLİ YEMƏKLƏR





**Əvvəli-Səh-10**

Azərbaycan mətbəxinin vazkeçilməzlərindən olan xəmir yeməklərini də unutmaq









olmaz. Bu da əsasən düşbərə, xəngəl, gürzə, sürfüllüdür. Bu kimi yeməklər var ki, bunlar da bölgəsinə görə dəyişir. Düşbərə məsələn, Bakı düşbərəsi daha xırda-xırda hazırlanır, ət hissəsi daha kiçik olur. Ancaq bölgələrə böldükdə isə düşbərələr daha iri hazırlanır və yaxud da gürzələr şəklində hazırlanır ki, bu da təxminən ərzaq olaraq eyni ərzaqlardan hazırlansa da formalarına görə dəyişə bilər. Bəzən olur ki, bunu yanlış hazırlayırlar. Məsələn, əgər xəmir yeməkləri hazırlayırıqsa yaxşı olar ki, onu əsasən qoyun ətindən hazırlayaq. Amma bir çox hallarda görürsünüz ki, insanlar mal ətindən hazırlamağa üstünlük verir və bu zaman onun dadı dəyişik ola bilər.

Ən çox tanınan yeməklərdən biri sacdır. Xüsusən Avropadan gələnlər, Şərq mətbəxindən məlumatı olmayanlar sacımızı daha çox bəyənir. Bu da ondan irəli gələ bilər ki, o standart qovurma mexanizmi ilə hazırlanır və tərəvəzlər, ət onların ağız dadına uyğun olduğu üçün bu yeməyi daha çox sevirlər. Amma yenə də ölkəsinə görə dəyişə bilər ki, dolmamızı da sevənlər çoxdur və dolma Azərbaycan yeməyi olaraq dünyada çox məşhurdur.

Kababımızı qeyd etməyi unutmayım. Kabablarımız da çox sevilir. Ancaq o halda ki, kabablar düzgün şəkildə bişirilsin. Ocağla ət arasında və yaxud digər bişiriləcək tərəvəzlər, digər kabablar ola bilər ki, onların arasında məsafə düzgün şəkildə saxlanmalıdır ki, kömürdəki, ocaqdakı konseregen maddələr həmin kababa hopmasın. Bir çox kabablarımız da var: manqal kababı, təndir kababı, sac kababı, lülə kababı, basdırma və s. bu da bizim mətbəxə aid kabablardır ki, xüsusi olaraq bunları da qeyd etmək istəyirəm.

Şirniyyatlarımız isə həddindən artıq çox kolorilidir. Yaxşı olar ki, günün birinci yarısında şirniyyatlar istifadə olunsun. Daha çox şəkərbura, paxlava, qurabiyə şəklində kökələr bizim şirniyyatlarımızı təşkil edir. Paxlavalar da bölgəyə görə fərqli hazırlanır. Onlar da bölgələrə görə dəyişir və bizim şəkər çörəyi kimi tanıdığımız çörək var.

İçkilərdən dovğa düzgün hazırlansa çox faydalıdır. Qatığı çox bişirməmək və göyərtiləri çox öldürməmək şərtilə olmalıdır. Doğrandı, dərhal qatıqla qarışdırılır və qaz dayandırılmalıdır. Bəzən olur onu düzgün bişirmirlər, qatıq qaynara düşəndə artıq göyərtini atırlar bu zaman artıq bir neçə dəfə də bulayırlarsa bu şəkildə artıq həm qatığı qaynatmaq olmaz, həm də ki göyərtilər həddindən artıq çox istiliyə məruz qaldıqda tərkibindəki vitamin və minerallar ölə bilir. Ona görə əgər biz dovğa hazırlayacıyıqsa düzgün şəkildə hazırlamalıyıq. Bir çox hallarda şikayətlər eşidirik ki, dovğa yedikdən sonra köpdüm və yaxud dovğa mənə şişkinlik verir bu düzgün şəkildə hazırlanmayan dovğadandır. Bəzi yeməklər var ki, qatıqla yeyilir bu da miqdarı keçməmək şərtilə əgər 150-200 qram ət yeyəcəyikə onun yanında bir xörək qaşığı və yaxud ən çox iki xörək qaşığı qatıq kifayət edir ki, bu bizim sağlamlığımızı təmin etsin".

**Qida üzrə baş mütəxəssis Ağa Salamov:** "Azərbaycan mətbəxi ümumiyyətlə bölgə mətbəxi Azərbaycanın tarixi qədər minilliklərə gedib söykənir.

Şəki mətbəxində piti saxsı qabda bişir, xammalı kartof, noxud, quyruq, zəfəran və s. olur. Həmin bu piti bölgələrə görə dəyişir. Məsələn, Gəncədə ona kartof da əlavə olunur. Elə yer var ki, şabalıd, elə də yer var noxud əlavə olunur. Pitinin tarixi çox qədimlərə söykənir. Piti bütün bölgələrdə var. Şəkidə noxud, kartof əlavə olunursa, məsələn, başqa bir bölgədə ora şabalıd əlavə olunur və yaxud başqa bir bölgədə sarıkök və yaxud zəfəran vurulur. Yəni bu bölgələrə görə dəyişir.

Məsələn Naxçıvan çöçəsi, Naxçıvan qayğanağı kərə yağının içərisində bişir və ora ən az 20-30 ədəd yumurta əlavə olunur. Çox dadlı olur, balla bişir.

Həmçinin qutab da bütün bölgələrdə var. Məsələn, Gəncə zonasında kətə, Gəncəbasar Qazax, Ağstafa, Tovuz kətə deyirlər və çox böyük bişirirlər. Amma Bakılılar onu elə yemir. Bakılılar çox incə, nazik yəni o qədər incə, şəffaf olmalıdır ki, qutabın bu üzündən baxanda o üzü görünməlidir. Bölgələrə görə qutab da dəyişir. Məsələn, Coratda qutab biraz qalın xəmirdən olur. Hər bölgə özünəməxsus üsulda o yeməkləri bişirirlər.

Cənub zonasında toyuq, balıq, bildirçin ləvəngisi var ki, yəni bu ləvəngilər toylarda, xeyir işlərdə təqdim olunur və adi gündəlik yemək kimi də onlar ləvəngidən geniş istifadə edirlər. Geniş mətbəxləri var. Ləvəngi bu dəqiqə təkcə cənub bölgəsində deyil, Azərbaycanın müxtəlif bölgələrində, hətta Bakıda da toylarda məsələn bildirçin ləvəngisi, kütüm ləvəngisi, toyuq ləvəngisi təqdim olunur. Amma ən çox cənub bölgəsinə aiddir.

Bakı mətbəxində də onlar yeməyi xırda sevirlər, məsələn düşbərə xırda olmalıdır. Müəyyən üsulda düşbərəni bükürlər. Amma Bakıda çox xırda bükülür, hətta bir qaşığa 18-20 arası düşbərə sığmalıdır. Həmçinin, qutab da, Bakı qutabı çox incə olur. Bakılıların ən çox sevdikləri göy qutabıdır. Həmçinin, ət sousu da Bakı mətbəxində var. Ona bozartma da deyirlər.

Məsələn, Qarabağ zonasında "Boyanalı aş" var. Düzdür plovlar bütün bölgələrdə məşhurdur. Qarabağ zonasının xüsusi bi-



şirdiyi ən gözəl, ən dadlı bişirdiyi boyanalı aş deyirlər. Qarabağ zonasında məşhurdur. Bakıda da bişirirlər amma nadir hallarda bişirirlər. Ən çox bu aşı Qarabağ zonası bişirir. Onların mətbəxinə aiddir. Həm də o boyana bitkisi orda daha çox geniş yayılıb".

**Respublika Kulinariya Şurasının üzvü, usta aşpaz Oruc Əliyev:** "Bölgələr hamısı biri-birindən fərqlənir.Bu da bölgələrdəki bitkilərin məhsuldarlığı və heyvandarlığı ilə bağlıdır. Çeşidlər də fərqlidir.

İrəvan mətbəxini misal göstərə bilərəm ki, bu mətbəx əvvəldən Təbrizə və Azərbaycana yaxın olub. Burada əsasən tərəvəzçiliklə məşğul olublar. Lakin, heyvandarlıq da kifayət qədər olub. Bu bölgədə qış çox sərtdir və burada "Qara qovurma" deyilən bir yemək var. Bu yemək xüsusilə dağ zonalarında hazırlanır".

***Ayşən Vəli***

# Şəhidlik zirvəsinə ucalan qəhrəmanlar!

## Tural Məmmədovun şəhadətə qovuşmasından bir il ötür





Vətən müharibəsi şəhidi, Oğuz rayonunun Sincan kənd sakini, gizir Tural Arif oğlu Məmmədovun şəhadətə qovuşmasından bir il ötür. Tural Məmmədovun ildönümü ilə əlaqədar YAP Oğuz rayon təşkilatının əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri şəhidin məzarını ziyarət edərək, əziz xatirəsini böyük ehtiramla yad edib, ruhuna dualar oxunub.Sonra şəhidin anım günü ilə əlaqədar Oğuz rayon təşkilatının fəalları, kənd ictimaiyyəti və Tural Məmmədovun təhsil aldığı orta məktəbin şagirdləri həmin məktəbdən böyüyüb boya-başa çatdığı evə yürüş ediblər və şəhidimizin ailəsi ziyarət olunub. Onların qayğı və problemləri ilə maraqlanıblar.

Şəhidin ailəsi göstərilən diqqət və qayğıya görə Cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz təşəkkürlərini bildiriblər. Tural Məmmədov Azərbaycan və Ermənistan arasında başlanan 2-ci Qarabağ müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edib. O, Suqovuşanın, Talış kəndinin azad olunması uğrundakı döyüşlərdə iki dəfə yaralanmış, sağlamlığının buna imkan verməməsinə baxmayaraq, təkidlə yenidən döyüşlərə qatılıb və oktyabrın 29-da Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmuşdur. Tural Məmmədov Oğuz rayonunun Sincan kəndində dəfn olunmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Tural Məmmədov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

**ZÜMRÜD BAYRAMOVA**

## YAP Qazax rayon təşkilatının fəalları iki şəhidin ildönümündə iştirak ediblər

29 oktyabr 2021-ci il tarixdə YAP Qazax rayon təşkilatının əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri Vətən müharibəsi şəhidi Nəsibov Asəf Səfəralı oğlunun və şəhid Nəsibov Elməddin Yusif oğlunun şəhid olmalarının ildönümləri ilə əlaqədar məzarlarını ziyarət ediblər. Anım mərasimində şəhidlərin əziz xatirəsini böyük ehtiramla yad edib, ruhuna dualar oxunub, məzarı üzərinə gül dəstələri düzmüşlər. Daha sonra şəhidlərin ailəsi ilə görüş keçirilib. Şəhidlərin ailə üzvləri göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə və





Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz təşəkkürlərini bildiriblər.

***Rəfiqə***

## Qobustan rayon təşkilatının fəalları şəhid Elxan Məmmədovun məzarını ziyarət edib





Qobustan rayon icra hakimiyyətinin rəhbərliyi, Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının, hüquq-mühafizə orqanlarının rəhbərliyi və rayon ictimaiyyətinin nümayəndələri, Qobustan rayonu Cəyirli kəndindən şəhid olan "Vətən uğrunda" , "Füzulinin azad olunmasına görə" , "Xocavəndin azad olunmasına görə" , "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuş Məmmədov Elxan Bədəl oğlunun şəhadətinin ildönümü münasibətilə məzarını ziyarət etmişlər, Şəhidin məzarı önünə tər gül dəstələri düzüb, onun əziz xatirəsinə ehtiramlarını bildirib, ruhuna dualar oxunmuşdur. Anım mərasimi ilə əlaqədar keçirilən tədbirdə Şəhidimizin keçdiyi döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan danışılmışdır.

***Rəfiqə***

## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailəsini ziyarət ediblər



Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 29 oktyabr 2021- ci il tarixdə 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Günəşli kəndindən olan şəhid Abdullazadə Teymur Faiq oğlunun ildönümü ilə əlaqədar olaraq ailəsini ziyarət ediblər.

Daha sonra şəhidin məzarı ziyarət olunub və dərin ehtiramla yad edilərək məzarının üzərinə tər gül dəstələri düzüblər. Allah rəhmət eləsin!

***R. Kamalqızı***

## Şəmkirdə şəhidin ildönümü qeyd olundu



44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə yüksəlmiş igid oğullarımızın yoxluğundan artıq 1 il ötür. Şəmkir rayon icra hakimiyyəti başçısının müavini, YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, qazilər, şəhidin doğmaları və ictimaiyyət nümayəndələri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən 2-ci Qarabağ müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan Şəmkir şəhərindən olan Etibar Cəfərovun məzarını şəhidimizin ildönümündə ziyarət ediblər.

Şəmkir rayon icra hakimiyyəti başçısının müavini, rayon təşkilatının sədri Fəxrəddin Vəliyev, qəhrəman Vətən oğlunun məzarı başında çıxış edərək şəhidimizə Allahdan rəhmət, ailəsinə səbir diləyib. 44 günlük Vətən müharibəsindən söz açan Fəxrəddin Vəliyev Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həmin müharibədə qazanılan şanlı Qələbədə Etibar Cəfərovun timsalında bütün Şəmkir şəhidlərinin şücaətindən danışıb. Qəhrəman şəhidlərimizin keçdikləri döyüş yolundan, göstərdikləri vətənpərvərlik nümunəsindən söz açan Fəxrəddin Vəliyev illər keçsə də şəhidlərimizin və onların qəhrəmanlıqlarının unudulmayacağını vurğulayıb və belə igid Vətən oğulları ilə fəxr etdiyini dilə gətirib.

Daha sonra tədbir iştirakçıları igid Vətən oğlunun ata ocağına gələrək torpaq uğrunda canından keçən şəhidlərimizə bir daha Allahdan rəhmət, ailələrinə səbir diləyib, əziz xatirələrini ehtiramla yad ediblər. Şəhidin ailə üzvləri hər zaman dövlət qayğısı ilə əhatə olunduqlarına görə razılıqlarını ifadə edib, ölkə Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər. Övladları və onlar kimi igid Vətən oğulları ilə hər zaman qürur duyacaqlarını söyləyiblər.

Qeyd edək ki, Etibar Cəfərov Kəlbəcər uğrunda gedən döyüşlər zamanı şəhid olub. Şəmkir şəhərində dəfn olunub.

***Rəfiqə***





# Qarabağın dünyaya açılan hava qapısı

## Füzuli Beynəlxalq Hava Limanı Türkiyə və Azərbaycan xalqlarının həmrəyliyinin rəmzidir

***Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyi münasibətilə təşkil olunan paradı seyr edən Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan bildirmişdilər ki, bu nailiyyətlərlə, gördüyümüz işlərlə heç vaxt kifayətlənməmişik və kifayətlənməyəcəyik.***

Gələcəkdə bizi daha böyük vəzifələr gözləyir. Bu həmrəyliyin nəticəsi torpaqlarımızın 30 il davam edən işğaldan azad edilməsi oldu. 44 gün davam edən İkinci Qarabağ müharibəsində qazandığımız Qələbə münasibətilə Bakıda təşkil olunan Zəfər paradını birgə izləyən prezidentlər İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın bu ilin iyun ayında imzaladıqları "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi nəzərdə tutulan möhtəşəm quruculuq işlərinin Yol Xəritəsi, hər iki xalqın qardaşlığının sarsılmazlıq təntənəsi, ənənəyə sadiqlik rəmzi idi.

Prezident Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Azərbaycana səfəri də tarixi anlarla zəngin oldu. Zəngilanın Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi ilə tanış olan, Dost "Aqropark"ın təməlini qoyan, mətbuata birgə bəyanatla çıxış edən Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan bu həmrəyliyin sarsılmazlığından ətraflı bəhs etdilər. Şuşada imzalanan Müttəfiqlik Bəyannaməsində qeyd olunan "Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər" bəndi hər iki dövlət başçılarının xeyir-duası, Horadiz-Cəbrayıl- Zəngilan-Ağbənd avtomobil yolunun təməlinin qoyulması ilə həllini tapdı.







Zəngəzur dəhlizinin icrası ilə bağlı atılan ilk addım "Biz Zəngəzur dəhlizini icra edəcəyik, Ermənistan bunu istəsə də, istəməsə də. İstəsə, daha asan həll edəcəyik, istəməsə də zorla həll edəcəyik" söyləyən Prezident İlham Əliyevin siyasi iradəsinin, Türkiyə-Azərbaycan qardaşlığının ifadəsi idi. Artıq Cənubi Qafqazda mənzərə tamam başqadır. Azərbaycan -Türkiyə birliyi regionda sabitlik, əməkdaşlıq yaradacaq, 3+3 formatı bölgə ölkələrinin iqtisadi inkişafına güclü təsir göstərəcək.

Qısa zamanda Füzuli Beynəlxalq Hava Limanının tikilməsi, işğaldan azad olunmuş ərazilərdə strateji əhəmiyyətə malik kommunikasiya infrastrukturunun formalaşdırılması, sonrakı illərdə Zəngilan və Laçında hava limanlarının inşasının başa çatdırılması niyyət deyil, reallıqdır. Son 30 ildə işğal olunmuş ərazilərə fəlakət gətirən, dağıntılar törədən Ermənistandan fərqli olaraq Türkiyə regiona sülh, tərəqqi, inkişaf, sabitlik gətirir. "Yəni, bu, bizim birgə uğurumuzdur" söyləyən Prezident İlham Əliyev vurğulayır ki, müştərək çalışmalar qarşıdakı illərdə də davam etdiriləcək.

İkinci Qarabağ savaşının ilk saatlarından son dəqiqələrinə qədər Türkiyə Azərbaycanın yanında olmuş, siyasi, mənəvi dəstəyini davam etdirmişdir. Azərbaycan xalqının qardaş türk xalqına Prezident Rəcəb Tayyib Ərdoğana hörmət və etimadını "Bilirsiniz ki, Azərbaycanda hər kəs Sizi sevir, Sizə böyük hörmətlə yanaşır. Siz bizim Zəfərimiz üçün çox böyük işlər görmüsünüz və bu gün artıq quruculuq dövründə, bərpa dövründə yenə də bizimlə bərabərsiniz" söyləyən Prezident İlham Əliyevin vurğuladığı kimi, bu səmimiyyət əsl qardaşlıq, dostluq nümunəsidir.

Bir həqiqət danılmazdır ki, regionda, hətta dünyada Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib. Türkiyə Prezidentinin ölkəmizə tarixi səfərinin yaddaqalan amili bütün türk dünyasını birləşdirəcək Zəngəzur dəhlizinin gerçəkləşdirilməsi istiqamətində əməli addımlar atıldı. "Əziz qardaşımla və qonaqlarla birlikdə böyük avtomobil yolunun təməlini qoyduq. Bu avtomobil yolu da Zəngəzur dəhlizinin bir hissəsidir. Bu avtomobil yolunun və dəmir yolunun çəkilişi nəticəsində biz istədiyimizə nail olacağıq" söyləyən Prezident İlham Əliyev bildirir ki, Türkiyə və Azərbaycanın birgə gücü ilə bölgədə yaranan reallıq dünya siyasətinə də önəmli təsir göstərəcək: "Ən önəmlisi, Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çatdırdığımız əlaqələrimizi daha necə inkişaf etdirə biləcəyimizi müzakirə etdik. Bir millət, iki dövlət olmağın verdiyi ortaq şüur və ruhla hərəkət edirik" söyləyən Rəcəb Tayyib Ərdoğanın "Gün gələcək Zəngəzurdan çıxıb İstanbula qədər gedə biləcəyik, İğdıra, Qarsa gedə biləcəyik və bölgənin tranzit, logistika mərkəzinə çevrilmə imkanı möhkəmlənəcək" sözlərinin əsasında mehriban qonşuluq münasibətlərinə sadiqlik, firavan gələcək istəkləri dayanır.

Azərbaycan -Türkiyə qardaşlığını təsdiqləyən Prezident İlham Əliyevin "Mən dünyada ikinci ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər biri-birinə bağlı olsunlar. Bu, bizim böyük sərvətimizdir. Məhz bu dostluq, qardaşlıq duyğuları əsasında biz nəhəng layihələri gerçəkləşdiririk" sözləri, Füzuli Beynəlxalq Hava Limanı, Zəngəzur dəhlizi kimi bölgəyə sabitlik, inkişaf gətirəcək layihələr, Rəcəb Tayyib Ərdoğanın "Dünya beşdən böyükdür" aforizmi dünya xalqlarına ünvanlanan sülhə çağırış mesajıdır.

***Xuraman İsmayılqızı***



# Təhsil eksperti: Birdən-birə dəyişikliyi etməklə uşaqları çətin vəziyyətə salırıq



"İlk növbədə qeyd edim ki, qəbul sistemində hər hansısa dəyişikliklərin həyata keçirilməsi tədris ili başlayandan sonra olmamalıdır. Çünki, artıq oktyabr ayı başa çatıb və abituriyentlərimiz növbəti il üçün hazırlıqlara başlayıblar". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Onun sözlərinə görə, ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələri orta məktəb nəticələri ilə eyni deyil: "Burada şagirdlər yüksək nəticə göstərmək üçün mütləq şəkildə hazırlıq kurslarına gedirlər. Onlar bütün planlarını bu istiqamətdə qururlar. 3-cü ixtisas qrupunda dəyişiklik ediləcəyi gözlənilirdi. Yəni, söhbət ixtisas əlavə edilməsindən gedir. 2020-ci ildə Operativ Qərargah yanında Nazirlər Kabinetinin bununla bağlı qərarı var idi ki, Beynəlxalq münasibətlər və Regionşünaslıq ixtisaslarını seçmək üçün bu ixtisaslar 3-cü qrupa keçirilsin. Amma burada coğrafiya fənninin olması müzakirə məsələsi deyildi. Belə bir qərar yox idi".

Kamran Əsədov sözlərinə belə davam edib: "Bir məsələni də qeyd edim ki, 3-cü ixtisas qrupuna coğrafiya fənninin əlavə edilməsi yox, eyni zamanda, əlavə olaraq coğrafiya fənnindən imtahan vermək imkanı verəcək. Bu da ancaq Beynəlxalq münasibətlər və Regionşünaslıq ixtisasını seçənlərə aiddir. Yəni, bu ixtisasları seçənlərə əlavə bir fənn daxil olacaq ki, bu da coğrafiya fənnidir. İxtisas seçimini isə istədiyi kimi edə bilər".

"Bu dəyişiklik 3-cü qrup üçün müsbətdir. Çünki, 3-cü qrupa əlavə ixtisasların daxil olması plan yerlərinin sayını artıracaq. Bu da yaxşı haldır. Çünki, 3-cü qrupda abituriyentlərin çoxsu ali məktəbə qəbul ola bilmirdi. Hətta, yüksək balla kəsilənlər də olurdu. Bu isə onların qəbul olma şansını artıracaq".

"1-ci qrupda isə vəziyyət biraz fərqlidir. Ona görə fərqlidir ki, 1-ci ixtisas qrupu üzrə hazırlaşan abituriyentlər 7-8-ci sinifdən artıq Kimya fənni üzrə hazırlaşırdılar. Çünki, Kimya çətin fənn hesab edilir".

"Digər məsələ isə informatika fənnidir. Lakin, bir problem var. Hazırda ölkədə ən ciddi müəllim çatışmazlığı informatika fənnindədir. İnformatika Azərbaycan dili və riyaziyyat fənləri ilə yanaşı yeganə fənlərdəndir ki, 1-ci sinifdən 11-ci sinifə qədər tədris olunur. Amma Azərbaycanda hələ bunun test bazası yoxdur. Digər fənlər nəzəri fəndir. İnformatika isə praktik fəndir. Birincisi dərsliklərimiz test tapşırıqları hazırlamağa uyğun deyil. İkincisi informatika fənni qəbul imtahanında istifadə olunacaq qədər keyfiyyətli tədris olunmayıb. Üçüncüsü, imtahanın yoxlanması üçün nümunəvi test tapşırıqları yoxdur".

"Bölgələrdə də ciddi şəkildə informatika müəllimi çatışmazlığı var və biz, birdən-birə bu dəyişikliyi etməklə uşaqları çətin vəziyyətə salırıq. Bu, xüsusilə uzun müddətdir tələbə olmaq istəyən abituriyentlər üçün çətin olacaq və onlara psixoloji təsir edəcək".

"Mən, 1-ci qrupda yüksək balın formalaşacağını gözləmirəm. Şagirdlər informatika fənnini o qədər yüksək səviyyədə oxumurlar. Bununla bağlı ölkədə müəllimlik sistemi formalaşmayıb. İnformatika fənninin indiki şəraitdə əlavə edilməsini müsbət dəyərləndirmirəm. Valideynlərin narahatlığı və narazılığı da tam normaldır. Biz, qərar verərkən şagirdləri də düşünməliyik. Bizdə informatika fənni hələ formalaşmayıb. Orta məktəb bilikləri ilə informatika fənnindən qəbul imtahanı vermək olmaz. Bu dəyişikliyin yaxın 2 ildə edilməməsi daha yaxşı olardı".

***Ayşən Vəli***

# AXCP-də yalnız Əli Kərimli var?

## Cəbhəbaşının mənəm-mənəmliyi digər cəbhəçilərin onun qulu-nökəri olduğunu isbatlayır

***AXCP-nin sədrindən daha çox sosial şəbəkələr üzrə əsas trolbaşısı vəzifəsini icra edən və bir nömrəli blogeri kimi fəaliyyət göstərən cəbhəbaşı Əli Kərimlinin eyni zamanda, mənəm-mənəmlik prinsipi əsasında siyasətbazlıqla məşğul olması kimsəyə sirr deyil. Yəni bunu az-çox siyasətlə maraqlanan hər kəs çox yaxşı bilir və görür. İllər əvvəl sədrlik kürsüsünü iyrənc yollarla, liderinə xəyanətlər törətməklə, onu cəbhəçilərin gözündən salmaq əməlləri ilə işğal edən Əli Kərimlinin bu gün digər cəbhəçiləri özünün nökəri-qulu kimi görməsi artıq təəccüblü hal deyil. Hansı ki, zamanında AXCP-nin qurucusu olmuş mərhum Əbülfəz Elçibəy demək olar ki, bütün çıxışlarında cəbhəçilər adından danışarkən "bizlər" deyə ifadə edirdi, amma gəlin görək, Əli Kərimli nə deyir?***

TƏRS BAXIŞ+FOTO

### Belə "mənlərin" sayı kiçik, on-on beş cümləlik statusda düz səkkiz dənədir!

Biz elə də uzağa getməyərək, AXCP sədrinin ona mühafizəçilik etmiş, hazırda həbsdə olan Niyaməddin Əhmədov haqqında Facebook sosial şəbəkə hesabında yazdığı bir neçə statuslara nəzər sala bilərik. Bəs Əli Kərimlinin həmin statuslardakı əsas məqsədi nədir - mühafizəçisini müdafiə etmək, yoxsa onun həbsindən öz şəxsi məqsədləri və maraqları üçün istifadə etmək? Çünki ilk baxışdan AXCP sədrinin statusları guya "müdafiə" tipli təsir bağışlayır, amma bu statusların içindəki "mənləri" görərkən bəlli olur ki, əslində, o bu məsələdə də özünü ictimai rəyə zorla, məcburi sırımağa çalışır. Üstəlik, yerdə qalan cəbhəçilərin fəaliyyətlərini heçə saymaqla! Yəni "bizlər" deyil, məhz "mən..mən...mən..." faktoru ortaya çıxır və belə "mənlərin" sayı kiçik, on-on beş cümləlik statusda düz səkkiz dənədir!

### Fakt budur ki, o, mənəm-mənəmliyi ilə yerdə qalan bütün cəbhəçiləri özünün nökəri, köləsi, kənizi və qulluqçusu hesab edir




Ali Karimli (Əli Kərimli)
26 Oktyabr, 10:00

Kimdir Niyaməddin Əhmədov? Onun tamamilə qanunsuz olaraq 13 il müddətinə azadlıqdan məhrum edildiyini bilirsiz. Onu da bilirsiz ki, Niyaməddin bəy cəbhəçidir, mənim ictimai əsaslarla mühafizəçim olub, məlum 19 oktyabr mitinqində məni sona qədər qorumağa çalışıb. Həbsindən sonra da ağır işgəncələrə məruz qalmasına baxmayaraq, mənə qarşı saxta ifadə verməyə razılaşmayıb. Ancaq Niyaməddin bəyi daha dəqiq tanımaq və onun fədakarlığını qiymətləndirmək üçün başqa vacib detalları da bilməlisiniz. Niyaməddin bəy həmin mitinqdə məni şəxsi münasibətlərimizə görə yox, ümumi amalımıza görə mühafizə edirdi. Niyaməddin bəy mənim qohumum deyil, şəxsi dostum deyil, mən heç vaxt ona pul verməmişəm, hansısa işinə yardımçı olmamışam. Niyaməddin bəy məni ona görə mühafizə etməyə çalışdı ki, xalqın sözünü dediyimə əmindir. O, konkret bir şəxs olan Əli Kərimlidən daha çox əzilən insanların sözünü deyən şəxsi mühafizə etdiyinə inanırdı. Mitinqdə məni sona qədər mühafizə edib, özünü oda atırdı ki, xalqın mitinqi baş tutsun, xalqın haqlı tələbləri səsləndirilsin və reallaşsın. Onu

Demək olar ki, hər cümlədə "mən" ifadəsi yer alıb. Beləliklə, bu statuslar Niyaməddin Əhmədovun "müdafiəsinə" hesablansa da, əslində, Kərimli "məni"ni tərənnüm edir. O, hər cümləsində yazır ki, "məni qoruduğuna görə", "məni müdafiə etdiyinə görə", "mənimlə birlikdə olduğuna" və s. Lakin bircə dəfə də olsun Niyaməddin Əhmədovun siyasi əqidəsi barədə fikir bildirmir. Yəni, Əli Kərimli özü-özlüyündə və eləcə də Niyaməddin Əhmədovun timsalında bütün cəbhəçilərin əqidələrini bilavasitə sual altında qoyur, hətta şübhə obyektinə döndərir.

Və belə olan halda AXCP-nin sədrlik kürsüsünü şəxsi maraqları üçün işğal edən, bu gün isə partiyasını açıq-aşkar biznes məkanına çevirən Əli Kərimli özünü daha nə, ya da kim hesab edir? Fakt budur ki, o, mənəm-mənəmliyi ilə yerdə qalan bütün cəbhəçiləri özünün nökəri, köləsi, kənizi və qulluqçusu hesab edir - dolayısı ilə ya da qeyri-dolayısı ilə. Bu ünsürün statusundan həm də nəticə hasil etmək olar ki, sən demə AXCP yalnız Əli Kərimlidən önəmlidir və əbəs deyil ki, bu günə qədər yazdığımız bütün yazılarımızda bu partiyanın adını Əli Kərimlinin AXCP-si deyə adlandırmışıq.

***Rövşən***

---

# Erməni siyasi analitik: "Qarabağ bizə lazım deyildi"

ETİRAF

### Tevos Arşakyan: "Biz 30 il ərzində orada, hətta normal yollar çəkə bilməmişik"

"Bu gün ermənilərdə heç nə qalmayıb - nə döyüş qabiliyyətli ordu, nə "artsax", nə də yaşamaq istədiyimiz Ermənistanın özü. Hər şeydə biz özümüz günahkarıq və bu gün hiddətlənirik ki, başımıza gələnlər niyə və necə baş verdi". SİA xəbər verir ki, bu fikirlərlə Ermənistanın armenianreport saytının siyasi şərhçisi Tevos Arşakyan çıxış edib.





### "Artıq Füzulidəki hava limanı da hazırdır"



O, Azərbaycanın uğur və qələbəsinə həsəd etdiyini gizlətmir və bildirir ki, erməni xalqı da Azərbaycana heyranlıqla baxır: "Bütün erməni xalqı Azərbaycana və onun fəaliyyətinə qibtə ilə baxır. Bəli, azərbaycanlılar qollarını çırmayaraq, paxıllıq ediləcək şəkildə enerji ilə Qarabağı mənimsəməyə atılıblar. Artıq Füzulidəki hava limanı da hazırdır, onu Azərbaycan və Türkiyə prezidentləri açdılar. Təqribən bir il əvvəl bir erməni olsa belə bunu təsəvvürünə gətirə bilməzdi, hansı ki, "artsaxdakı status-kvo" bizə keçilməz görünürdü. Və bizə elə gəlirdi ki, bu, əbədi olacaq".

"Əvvəlcə Koçaryanın quldur dəstəsi, sonra Qukasyanın və Saakyanın və bunu Arutyunyan başa çatdırdı"

Arşakyan mənsub olduğu xalqın səhvlərini incələyərək yazır ki, ermənilər köklü şəkildə doğru yanaşmalar etməyiblər. "Hər şeydən əvvəl ermənilərin özləri-özlərindən soruşmalıydılar: biz "artsaxın" çiçəklənməsi və qorunması naminə nə etmişik? Biz 30 il ərzində orada, hətta normal yollar çəkə bilməmişik. Bu illər ərzində heç nə edilməyib", yazan erməni siyasi şərhçisi bütün bunların yerinə tanınmayan separatçı qurumun saxta "prezidentlərinin" oğurluqla, talançılıqla məşğul olduqlarını xatırladıb və etiraf edib: "Hər şey oğurlanırdı. Əvvəlcə Koçaryanın quldur dəstəsi, sonra Qukasyanın və Saakyanın və bunu Arutyunyan başa çatdırdı".

### "İndi isə dil-dodağımızı gəmirə-gəmirə, paxıllıqla orada azərbaycanlıların nə etdiklərinə baxırıq"

Tevos Arşakyan əlavə edir ki, hətta Ermənistanın özündə belə Qarabağda baş verənlər, oradakı insanların taleləri maraqsız idi və İrəvan heç nəyi vecinə almırdı.

"2020-ci ilin sentyabrında insanların sayı minimuma endi. Onlar "artsaxı" yaxşı həyat və qazanc əldə etmək üçün, sadəcə, tərk edirdilər. Kimi Ermənistana geri qayıdır, kimi də Rusiyaya, ya da Qərbə doğru gedir", yazan siyasi şərhçi daha bir etirafı da edib: "Biz, ermənilər "artsaxı" hələ müharibəyə qədər itirmişdik. Ona görə ki, bizə Qarabağ lazım deyildi. İndi isə dil-dodağımızı gəmirə-gəmirə, paxıllıqla orada azərbaycanlıların nə etdiklərinə baxırıq. Lakin biz hələ çox gəmirəcəyik, ona görə ki, biz məğlub olmuşuq", deyə armenianreportun analitik yazarı qeyd edib.

***R. Nurəddinoğlu***

***Litvalı jurnalist: "ABŞ və Avropa Ermənistandan öz qoşunlarını Qarabağdan çıxarmağı ciddi tələb etsəydi, münaqişə sülh yolu ilə həll oluna bilərdi. Amma Qərb son 30 ildə Ermənistanı dəstəklədi"***



Litvalı jurnalist, publisist Gintaras Visotskas "Caliber" analitik mərkəzinə müsahibəsində Qarabağ həqiqətlərinin Litvada necə qəbul edildiyi və Litvanın Azərbaycana yanaşmasında ciddi səhvlərin olduğunu qeyd edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Azərbaycan-Litva münasibətlərinin hazırkı səviyyəsini və Vilnüsün Cənubi Qafqazla bağlı siyasətini necə qiymətləndirirsiniz?***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Gintaras Visotskas: "Litvalılar elə bilirlər "Daşnaksütyun" və ASALA Azərbaycanın terror təşkilatlarıdır"







- Ölkələrimiz bir çox sahələrdə- siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlıq edə bilərdi. Lakin rəsmi Vilnüs Azərbaycanla dostluq etmək istəmir. Litva siyasətçiləri hələ də Ermənistanla geniş əlaqələr qurmağın yollarını axtarırlar.

Litvanın Cənubi Qafqazdakı rəsmi xarici siyasəti Ermənistanı dəstəkləməyə yönəlib. Qalan hər şey əhəmiyyətsizdir. Məncə, rəsmi Vilnüs özünü düzgün aparmır. Litvanın qərəzli davrandığını gizlətsəm, ürəyimi bulandırardım. Ermənistana himayədarlığı göz qabağındadır. Litva liderləri Cənubi Qafqaza uçarsa, ilk işləri İrəvana səfər etməkdir. Onlar Bakıya yalnız Litvanın həm ermənilərə, həm də azərbaycanlılara qarşı eyni dərəcədə ədalətli olması görüntüsü yaratmaq üçün uçurlar.

Məsələn, Ermənistanın baş naziri Nikol Paşinyanın xanımı artıq Litvaya səfər edib, onu Litvanın 1-ci xanımı, prezident Gitanas Nausedenin xanımı Diana Nausedeni qəbul edib. Paşinyan özü də Vilnüsdə olub. Əgər Litva Cənubi Qafqaza humanitar yardım və peyvəndlər olan bağlamalar, həkim briqadası göndərirsə, bunu yalnız Ermənistana verir. Litva Vətəndaşlarının Soyqırımı və Müqavimətinin Öyrənilməsi Mərkəzində 1915-ci il hadisələrinin ildönümü münasibətilə təşkil olunan tədbirdə mərkəzin bütün rəhbərliyi iştirak edib. Amma orada Xocalı qurbanlarının xatirəsi ehtiramla yad ediləndə bir nəfər də olsun rəhbər olmayıb.

Ermənistan-Litva əməkdaşlığının son nümunəsi İrəvan və Vilnüs arasında iki ölkənin müvafiq idarələrinin rəhbərlərinin iştirak etdiyi aviareyslərin təntənəli açılışıdır.

***- Litvanın 44 günlük müharibəyə münasibəti belə idi?***

- Əlbəttə, nəyisə qaçıra bilərəm, amma mənə elə gəlir ki, litvalı siyasətçilərin, politoloqların və jurnalistlərin əksəriyyəti Azərbaycanı Qarabağı qaytarmaq üçün hərbi yol seçdiyinə görə tənqid edirdilər. Qarabağın beynəlxalq hüquqa görə Azərbaycana məxsus olması, rəsmi Bakının çox uzun müddət və səbirlə gözlədiyi, lakin Qərbin köməyini görmədiyi-bütün bunlar məharətlə arxa plana atıldı.

Ermənistan 30 ilə yaxındır ki, Azərbaycan ərazisinin 20 faizini işğal altında saxladığına görə tənqid olunmayıb. Bu mənim təəssüratımdır.

***- Vilnüsdə Bakını münaqişənin hərbi yolla həllinə görə tənqid edirdilər. İndiki şəraitdə sülh yolu mümkün idimi?***

- Fikrimcə, ABŞ, NATO və Avropa İttifaqı prinsipial hərəkət edərək Ermənistandan öz qoşunlarını Qarabağdan çıxarmağı ciddi tələb etsəydi, bu münaqişə sülh yolu ilə həll oluna bilərdi. Onda bəli, hər şey sülh yolu ilə həll olunacaqdı. Amma son 30 ildə Qərb mənim anlamadığım səbəblərə görə açıq şəkildə xarici əraziləri işğal etmiş Ermənistana üstünlük verib. Ona görə də Azərbaycanın başqa yolu yox idi.

Ya beynəlxalq hüquqa uyğun olaraq ona məxsus olanı zorla qaytarır, ya da daha 30 il "münaqişənin yalnız sülh yolu ilə həll edilməsi" zərurəti ilə bağlı Qərbin danışmağına qulaq asır. 2020-ci ilin payızında Azərbaycanın öz torpaqlarını hərbi yolla geri qaytarmağa məcbur edilməsi, dişsiz danışıqlar aparan Qərbin günahıdır.

Yeri gəlmişkən, Litva da bir vaxtlar çox oxşar vəziyyətdə idi. Mən 1923-cü ildə Klaypeda bölgəsinin azad edilməsi əməliyyatını nəzərdə tuturam. Sonra Litva Klaypedanın taleyini düzgün həll etməyin zəruriliyi ilə bağlı Qərbin cəfəngiyyatına qulaq asmaq əvəzinə, ordusunun gücü ilə limanı zorla geri aldı. Bu hərbi əməliyyat olmasaydı, Litva yəqin ki, Klaypedanı həmişəlik itirəcəkdi.

Ona görə də mən rusiyalı iqtisadçı Andrey İllarionovun dediyi ilə razıyam ki, işğal edilmiş əraziləri sülh yolu ilə qaytarmaq çox nadir hallarda mümkündür. Və bu cür cəhdlər çox vaxt nəticəsiz olur. İşğalçılar işğal etdikləri torpaqlardan könüllü olaraq əl çəkmirlər.

***- Sadə litvalıların ümumilikdə Qarabağ münaqişəsindən xəbəri varmı?***

- Litvalılar Qarabağın və Qarabağ münaqişəsinin əsl tarixini bilmirlər. Bir çox nüfuzlu litvalılar hələ də Qarabağın erməni torpağı olduğuna əmindirlər. Litva bilmir və ya bilmək istəmir ki, 1992-1994-cü illərdə Qarabağ uğrunda gedən müharibədə erməni qüvvələrinə Rusiya hərbçiləri kömək edib. Litva mətbuatında, xüsusən də Qarabağ münaqişəsi mövzusunda Azərbaycanın xeyrinə yazılar dərc etmək son dərəcə çətindir. Mən bunu şəxsi təcrübəmdən bilirəm. Çap etmirlər. Litvalılardan "Daşnaksütyun", ASALA və ya "Hnçak" nədir deyə soruşsanız, çox vaxt cavab olaraq eşidəcəksiniz ki, bunlar "Azərbaycan terror təşkilatlarıdır".

Təbii ki, heç də bütün litvalılar bilmir ki, Ermənistanda hələ də Rusiya hərbi bazası var və erməni hərbi təlimatçıları bu il Litva sərhədində keçirilən "Qərb-2021" Rusiya-Belarus təlimlərində iştirak ediblər. Yalnız mənim portalımda Ermənistan-Azərbaycan münasibətlərinə dair məqalələr tapa bilərsiniz. Litvada təkcə Ermənistanın deyil, Azərbaycanın da xeyrinə arqumentlər verən bir neçə kitab nəşr olunub. Bu, tarixçi Algimantas Lekisin "XX əsrdə Qafqazda xalqların köçü" əsəridir. Bir də "Qara bağın faciəsi" və "Qara bağın işi" məqalə toplularım.

***- Litva Azərbaycanın ərazi bütövlüyünü tanıyacaqmı? O, Qarabağın Ermənistanın deyil, Azərbaycanın ərazisi olması ilə razılaşırmı?***

- Rəsmi olaraq, Litva Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşır. Amma pərdəarxası fəaliyyət tam əksinədir. Rəsmi Bakıdan yan keçərək Ermənistan vasitəsilə Qarabağa gedən və geri qayıdan litvalıların uzun bir siyahısını misal gətirə bilərəm ki, onlar mediada "qəddar azərbaycanlıların hücumları ərəfəsində bədbəxt ermənilərin hansı mənəvi və fiziki iztirablar çəkdiyini" təsvir edirlər.

Müzakirə iştirakçılarının azərbaycanlıların Qarabağdakı hüququnu mübahisələndirdiyi Litvanın nüfuzlu mediasında birdən çox televiziya şousunun və birdən çox nəşrin adını çəkə bilərəm. Qarabağın də İrəvan kimi vaxtilə çoxlu azərbaycanlının yaşadığı və onların öz yurd-yuvasından didərgin salınması ilə bağlı bir sətir belə yoxdur. Azərbaycanlı qaçqınların çəkdiyi əzablardan bir dəfə də olsun bəhs edilmir.

2020-ci ilin payızında Ermənistanın Qarabağa heç bir aidiyyatı olmayan Gəncə, Tərtər və Bərdə şəhərlərini xaincəsinə atəşə tutması və bu hücumlar zamanı Azərbaycanın mülki əhalisinin həlak olması barədə bir kəlmə də yoxdur. Ermənistanın işğalı illərində Qarabağda bir çox Azərbaycan mədəniyyət, tarixi və dini abidələrinin təhqir olunaraq dağıdılmasından bir kəlmə də danışılmır. Sadəcə olaraq Qarabağı işğal edən müsəlman azərbaycanlıların indi xristian mədəniyyəti və tarixi abidələrini məhv edəcəyindən narahatdır.

***- Sizcə, Azərbaycanla Ermənistan arasında sülh mümkündürmü?***

- Ermənistan özünü erməni əsilli tarixçi-tədqiqatçı Filipp Ekzoyansın soydaşlarına tövsiyə etdiyi kimi aparmalıdır. Ermənistan saxtakarlıqlardan əl çəkməlidir. Tarixə ayıq nəzər salmaq lazımdır. Təkcə öz arxivlərimizi qərəzsiz araşdırmaq yox, başqa ölkələrin tarixçilərini, tədqiqatçılarını da oraya buraxmaq lazımdır. O zaman məlum olacaq ki, "dənizdən dənizə böyük Ermənistan" haqqında miflər nəyə dəyər.

Amma tarixə açıq fikirlə baxmaq o qədər də asan deyil. Hətta Litva heç də həmişə tarixi hadisələri obyektiv təhlil etməyi bacarmır. 2005-ci ildə Litva Seymi "Faciəli 1915-ci ildə erməni soyqırımı haqqında" xüsusi qətnamə qəbul etmişdir. Məncə, bu, rəsmi Vilnüsün dəhşətli səhvi idi. Qətnamənin qəbulu zamanı heç bir litvalı tarixçi, politoloq və ya jurnalist Türkiyə, Azərbaycan və Ermənistanın arxivlərinə belə baxmayıb (hələlik xaricilər Ermənistan arxivlərinə buraxılmır). İlkin mənbələri təhlil etmədən belə bəyanatları necə dərc etmək ağıl üçün anlaşılmazdır.

Litvanın daha bir hərəkətindən utanıram. 2019-cu ildə Litva Elmlər Akademiyasında ermənilər 1915-ci il faciəsi ilə bağlı müzakirə təşkil ediblər. Elmlər Akademiyasının rəhbərliyi erməni siyasətçiləri, tarixçiləri, erməni icmasının nümayəndələrini qəbul etməklə düzgün iş gördü. Amma bütün demokratik prinsipləri, ədəb ideyalarını ayaqlar altına atdı, türk səfirini və türk tarixçilərini oraya buraxmadı. Ermənilər qarşılandı, türklərə qapı göstərildi. Düşündüm ki, bundan sonra Türkiyə dərhal öz səfirini geri çağıracaq və bundan sonra türk qırıcılarının Litvanın hava məkanını müdafiə etməyəcəyini bəyan edəcək. Lakin türklər öz ləyaqətlərini qoruyub saxladılar-buna görə onlara "sağ ol" düşür.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
30 oktyabr
2021-ci il

# Ofisdə çalışanların ən çox üzləşdiyi xəstəliklər



***Oturaq iş, stress və qeyri-müntəzəm qidalanma orqanizmdə müəyyən narahatlıqlara səbəb olur. Həmin vəziyyətlə qarşılaşanların çoxu günün əsas hissəsini qapalı məkanlarda çalışanlardır.***

Statistikaya görə, ofis işçiləri həftənin 45-70 saatını oturaq vəziyyətdə keçirirlər. Həmin rejimə alışdıqları üçün ilk vaxtlar onların orqanizmində heç bir narahatlıq hiss edilmir. Lakin zaman keçdikcə iş rejimi, qapalı mühit, oksigenin kifayət qədər olmaması və hərəkətsizlik öz fəsadlarını göstərir.

Ofis işçilərinin ən çox üzləşdikləri narahatlıqlar sırasında oynaq xəstəlikləri üstünlük təşkil edir. Uzun müddət oturaq həyat keçirənlərdə ayaq əzələləri zəifləyir və müəyyən fəsadlara zəmin yaranır. Ofis şəraitində hava-damcı infeksiyalarına tez yoluxmaq da mümkündür. Çünki iş şəraitində müxtəlif bakteriyaların çoxalması üçün münbit şərait mövcuddur. Mütəxəssislərin dediyinə görə, qapalı məkan şəraitində işləyənlər əlləri, o cümlədən də tez-tez toxunulan əşyaları nəm salfetlərlə təmizləməli və dezinfeksiya etməlidirlər.

Oturaq iş rejimi artıq çəki əmələ gəlməsinə səbəb olur. Buna görə iş zamanı ara vermədən qidalanmaq yolverilməzdir. Britaniyanın elm adamları belə qənaətə gəliblər ki, ac olmadan qəbul edilən karbohidrat orqanizmdə artıq piy toxumasına çevrilir. Ona görə də yeməkdən 20 dəqiqə sonra yarım saat açıq havada hərəkət etmək məsləhət görülür. Qapalı, havasız mühit immuniteti zəifləməsinə, nəticədə isə ürək-damar sistemi xəstəliklərinə zəmin yaradır. Bu məqam stressə də yol açır və yuxusuzluğun yaranmasına təkan verir. Müəyyən edilib ki, oturaq iş rejimində stressdən uzaq olmaq üçün zəncəfil çayı içmək, tez-tez havaya çıxmaq və sintetik materiallardan istifadə etməmək zəruridir.

Ümumiyyətlə, ofis şəraitində işləyənlər stress keçirdikdə və çox yorulduqda 3-4 günlük məzuniyyət götürməli, təmiz havada vaxt keçirməlidirlər. Yorğunluq keçməyəndə həkimə müraciət etmək mütləqdir.

# "Barselona"ya "diriyor"luğu kim edəcək?



***Indi əksər "Barselona" azarkeşləri Messinin gedişindən sonra komandanın gələcək oyununu kimin müəyyənləşdirəcəyini, yəni loru dildə desək, oyun zamanı komandaya "diriyor"luğu kimin edə biləcəyi barədə "baş sındırırlar".***

Amma deyəsən, komandada belə bir vəzifəni öhdəsinə götürməyi bacaran birinin artıq "peyda olduğu" barədə fikirlər səsləndirməyə başlayıblar. Belə ki, əksər futbol mütəxəssislərinin fikrincə, bu "Barselona"nın 19 yaşlı oyunçusu Niko Qonzales ola bilər. Məsələ bundadır ki, gənc oyunçu komandanın son oyunlarında özünü yaxşı tərəfdən göstərib. Hətta maraqlıdır ki, son günlər onu Serxio Busketslə müqayisə etməyə başlayıblar.

Belə görünür ki, Xavinin gəlişindən sonra komandada rəqabət artacaq

**Ağasəf**

# 2022-ci ilin büdcəsində neftin qiyməti 50 dollar olacaq



**2022**-ci il Azərbaycan dövlət büdcəsində neftin qiyməti 50 dollar səviyyəsində müəyyən edilib. SİA-nın məlumatına görə, bunu Azərbaycan Mərkəzi Bankının idarə heyətinin sədri Elman Rüstəmov mətbuat konfransında deyib. Qeyd edək ki, 2021-ci ilin dövlət büdcəsində neftin qiyməti 45 dollar/barel səviyyəsində müəyyən edilmişdi.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycan dövlət büdcəsinin gəlirləri, rəsmi proqnozlara əsasən, 2021-ci illə müqayisədə 5,4 faiz artaraq 26,82 milyard manat təşkil edəcək. Dövlət büdcəsinin xərcləri isə gələn il 29,89 milyard manata bərabər olacaq. Bu, 2021-ci illə müqayisədə 4,7 faiz çoxdur.

# Şəkərli qida məhsullarının reklamlarına qadağa

***İspaniyada solçu koalisiya hökuməti 16 yaşından kiçiklərə yönəlik şəkərli qida məhsullarının reklamlarının 2022-ci ildən etibarən qadağan ediləcəyini bildirib. SİA bu barədə xarici mətbuata istinad edir.***

Ölkənin istehlak naziri Alberto Qarzon təşkil edilən mətbuat konfransında internet, kino salonları, radio və televiziyalarda 16 yaşdan aşağı uşaqlar üçün biskvit, dondurma, şəkərli və ya bol kalorili meyvə suları kimi qida məhsullarının reklamlarının gələn ildən qadağan olunacağını söyləyərək deyib: "Ümumdünya Səhiyyə Təşkilatı, Milli Bazarlar və Rəqabət Komissiyası ilə lazımlı görüşlər tamamlandı. İspaniyada həddindən artıq kilolu nisbəti 23,3, obezite 17,3 faizdir. 6-9 yaş arası uşaqlar üçünsə bu faiz 40-ı keçir. Bunlar narahatverici rəqəmlərdir."

Qeyd edək ki, İspaniyada sentyabr ayında yayılan bir araşdırmada uşaqlara yönəlik hər 10 televiziya reklamından 9-unun sağlam bəslənmə qaydalarını pozduğu yazılıb.



# 43 yaşlı Buffon penalti qaytardı



***"Parma"nın qapıçısı Canluici Buffon növbəti inamlı oyunu ilə diqqət mərkəzinə düşüb. Qol.az xəbər verir ki, 43 yaşlı qolkiper B seriyasının 10-cu turunda "Çittadella" ilə səfər görüşündə penalti-ni dəf edib.***

O, matçın 12-ci dəqiqəsində meydan sahiblərinin hesabı açmasına imkan verməyib. Oyun "Parma"nın 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, "Parma" 10 oyundan sonra 13 xalla 13-cü pillədə qərarlaşıb.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**